QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 154 (5385) 26 **avqust** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev “Buta Airways” aviaşirkətinin Bakıya gətirilən ilk “Embraer 190” təyyarəsi ilə tanış olub




Səh 2

8

Ermənistan transmilli terrorçuların sığınacağına çevrilib



6

Ermənistanda idmançılar hökumətin onlara laqeyd münasibətindən narazılıq edirlər



16

Ronaldo Avropanın ən yaxşı futbolçusu seçildi!



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
26 avqust 2017-ci il

# Prezident İlham Əliyev “Buta Airways” aviaşirkətinin Bakıya gətirilən ilk “Embraer 190” təyyarəsi ilə tanış olub










***Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Hava Yolları” QSC-nin nəzdində yaradılan “Buta Airways” aviaşirkətinin Bakıya gətirilən ilk “Embraer 190” təyyarəsi ilə tanış olub.***

Azərbaycanda turizmin inkişaf etdirilməsi dövlətin əsas prioritet sahələrindən biridir. Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə turizm obyektlərinin yaradılması ilə yanaşı, nəqliyyat infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. “Buta Airways” aviaşirkətinin lou-kosterinin yaradılması da dövlətimizin başçısının Nazirlər Kabinetinin iclasında aviabiletlərin qiymətinin aşağı salınması ilə bağlı verdiyi müvafiq tapşırığına əsasən görülən işlərdəndir.

AZƏRTAC xəbər verir ki, “Azərbaycan Hava Yolları” QSC-nin prezidenti Cahangir Əsgərov “Buta Airways” aviaşirkətinin yeni “Embraer 190” təyyarəsi barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, ekonom sinif modifikasiyalı bu təyyarə 106 sərnişin tutumuna malikdir. “Buta Airways” ən çox tələb olunan istiqamətlərə uçuşlar yerinə yetirəcək. Sentyabrın 1-dən etibarən Bakıdan Moskva, Kiyev, Antalya, Kazan, Mineralnıye Vodı, Tbilisi və Tehrana, oktyabrın 29-dan isə tətbiq ediləcək qış uçuş cədvəlinin başlamasıyla Bakıdan İstanbula və Sankt-Peterburqa, eləcə də Gəncədən Moskvaya uçuşlar olacaq. Bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir. “Buta Airways” tipik lou-koster sxemi üzrə fəaliyyət göstərir və baqajın daşınması, təyyarədə isti yeməklər, yer seçimi və digər xidmətlər əlavə ödəniş müqabilində təklif ediləcək.

Yaxın günlərdə şirkətin daha bir yeni “Embraer 190” təyyarəsinin Bakıya gətirilməsi nəzərdə tutulur. Ümumilikdə isə aviaşirkətin hava gəmiləri parkındakı “Embraer 190” təyyarələrinin sayı 8-ə çatdırılacaq. Bu layihənin icra edilməsi ölkə vətəndaşlarının daha ucuz qiymətə dünyanın müxtəlif şəhərlərinə səyahət etməsinə imkan yaratmaqla yanaşı, Azərbaycana turist axınının artmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcək.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Fəzail Ağamalının “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Fəzail Rəhim oğlu Ağamalı “Şöhrət” ordeni ilə təltif edilsin.

# Nüfuzlu “Əl-Fəcr” qəzetində Azərbaycanın Birinci vitse-prezidenti haqqında geniş məqalə dərc edilib

***Birləşmiş Ərəb Əmirliklərinin geniş oxucu kütləsinə malik gündəlik “Əl-Fəcr” qəzetinin 24 avqust nömrəsinin bütöv bir səhifəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya həsr olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Mehriban Əliyevanın dövlət xadimi və ictimai xadim kimi fəaliyyətindən, Azərbaycanda təhsil, səhiyyə, mədəniyyət və idman sahələrinin inkişafında, xalqın mədəni irsinin qorunmasında, ölkəmizin dünyada müsbət imicinin möhkəmlənməsində böyük xidmətlərindən bəhs edilir, onun mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələr qeyd olunur. AZƏRTAC yazını təqdim edir.***


منوعات
الفجر
ص 22
كلية العلوم الإنسانية والاجتماعية بجامعة الإمارات تنظم ورش في التنمية المهنية
ص 35
مهربان علييفا أيقونة للعمل الوطني وملكة متوجة في قلوب الشعب الأذري
الخميس 24 أغسطس 2017 م - العدد 12105
Thursday 24 August 2017 - Issue No 12105


Thursday 24 August 2017 - Issue No 12105
من هنا وهناك
منوعات الفجر 35
سفيرة النوايا الحسنة لمنظمتي اليونيسكو وايسيسكو
مهربان علييفا أيقونة للعمل الوطني وملكة متوجة في قلوب الشعب الأذري
مؤسسة حيدر علييف تلعب دورا مهما في إحياء التراث الأذربيجاني بكافة مجالاته
تبنت مؤسستها العديد من المبادرات الصحية في مناطق كثيرة من العالم وساهمت في تخفيف آلام ضحايا الأزمات والكوارث الطبيعية
بفضل رعايتها أصبحت أذربيجان وجهة رئيسة للرياضة في العالم

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva böyük qayğı göstərdiyi müxtəlif sahələrdə, xüsusən humanitar sahədə mühüm xidmətlərinə görə Azərbaycan xalqının dərin rəğbətini və sevgisini qazanıb. Mehriban Əliyeva yüksək əxlaqi, elmi və mədəni dəyərlərə malik ziyalı bir ailədə doğulub və tərbiyə alıb. Onun babası Mir Cəlal Paşayev Azərbaycanın görkəmli ədəbiyyat xadimi, tanınmış yazıçı idi. Valideynləri Mehriban Əliyevanın milli və mədəni şəxsiyyətinin formalaşmasında əvəzsiz rol oynayıblar. Atası Arif Paşayev 1996-cı ildən Milli Aviasiya Akademiyasının rektorudur, anası Aida İmanquliyeva mədəniyyət, dilçilik və şərqşünaslıq sahələrində tanınmış tədqiqatçı olub. Bütün bunlar Mehriban xanımda şeirə, musiqiyə və incəsənətə böyük maraq və sevgi yaradıb. Birinci xanım insanların, xüsusən də qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə nail olub, onlar üçün firavan yaşayışın təmin olunmasında böyük rol oynayıb. Eyni zamanda, o, 2004-cü ildə təsis olunmuş və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fondun xətti ilə cəmiyyətin müxtəlif sahələrinin inkişafına mühüm töhfələr verməkdədir. Mehriban xanım uşaqlar və onların problemlərinin həllinə böyük diqqət və qayğı ilə yanaşır, yeni məktəblərin, xəstəxanaların, musiqi məktəblərinin, talassemiya mərkəzinin və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yay düşərgələrinin yaradılmasına nail olub. O, uşaqlara göstərdiyi qayğı ilə yanaşı, ahıllara da xüsusi diqqət ayırır.

Heydər Əliyev Fondu mədəniyyət sahəsində irimiqyaslı layihələr həyata keçirib, Azərbaycanın musiqi mədəniyyətinin, xüsusilə mənsub olduğu xalqın milli musiqi növü olan muğamın təşviqində əvəzsiz xidmətlər göstərib, paytaxt Bakıda Muğam Mərkəzi inşa etdirib, muğam janrının bir çox ölkələrdə təbliğinə və tanıdılmasına nail olub. Fond, eyni zamanda, dünyanın müxtəlif ölkələrindən dəvət olunan tanınmış musiqiçilərin iştirakı ilə musiqi festivalları və gecələri təşkil edərək, Azərbaycan mədəniyyətinin təbliğinə əvəzsiz töhfələr verir. Yarandığı gündən bəri Heydər Əliyev Fondu dünya mədəniyyətinin inkişafında, sivilizasiyalararası dialoqun möhkəmlənməsində böyük rol oynayır, humanist dəyərlərin, sülh və tolerantlığın yayılmasına, mədəniyyətlərarası dialoqun inkişafına əvəzsiz töhfələr verir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdəki Luvr muzeyində İslam incəsənəti bölməsi yaradılıb, Versal sarayında tarixi incəsənət abidələrinin, həmçinin İkinci Dünya müharibəsi nəticəsində dağıdılmış Berlin qəsrinin, Vatikan arxivində saxlanılan nadir əlyazmaların və orada yerləşən qədim heykəllərin bərpa işləri həyata keçirilib. Roma şəhərində yerləşən Kapitoli muzeyində filosoflar zalının bərpası Fondun bu sahədə ən mühüm nailiyyətlərindən biri hesab edilir.

Bütün bunlarla yanaşı, dünyanın müxtəlif ölkələrində baş verən təbii fəlakətlərin qurbanları da Mehriban Əliyevanın diqqətindən kənarda qalmır. Təbii fəlakətlərdən əziyyət çəkmiş Rumıniyaya və Haitiyə Azərbaycanın birinci xanımının təşəbbüsü ilə yardımlar göstərilib, Pakistanda zəlzələ nəticəsində tamamilə dağılmış qızlar məktəbi yenidən inşa edilib, bu ölkədə çoxsaylı inkişaf proqramı və layihələri həyata keçirilib. Heydər Əliyev Fondu Parisdə terror qurbanlarının 7-ci beynəlxalq konfransının təşkili məqsədilə 2011-ci ilin sentyabr ayında Fransa Terror Qurbanları Assosiasiyasına maliyyə yardımı göstərib. Azərbaycan şifahi xalq ədəbiyyatının, milli irsinin, mədəniyyət və musiqisinin qorunması və inkişafında göstərdiyi səylərin nəticəsi olaraq Mehriban xanım 2004-cü ildə UNESCO-nun, İslam dünyasının müxtəlif sahələrində xidmətlərinin nəticəsi olaraq 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülüb.

Mehriban Əliyeva Azərbaycanda idman sahəsinin inkişafına da xüsusi diqqət yetirir. O, 2015-ci ildə Azərbaycanın birinci Avropa Oyunlarına, həmçinin həmin il bədii gimnastika üzrə beynəlxalq kubok yarışına uğurla ev sahibliyi etməsində böyük rol oynayıb. Mehriban xanım 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildikdən sonra 2003-2004-cü illərdə ölkə beynəlxalq gimnastika yarışlarına ev sahibliyi edib.

Mehriban Əliyeva birinci Avropa Oyunlarının müvəffəqiyyətlə keçirilməsində xüsusi fədakarlığı ilə seçilib, Azərbaycanın dünyada idman ölkəsi kimi tanıdılmasına töhfələr verib və bu səylər ölkənin Oyunlarda böyük uğur qazanması ilə nəticələnib.

Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin müxtəlif inkişaf sahələrində, həmçinin idman, mədəniyyət, səhiyyə və təhsil sahələrində gördüyü işlər 2015-ci il iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən yüksək qiymətləndirilib, Fondun prezidenti Mehriban Əliyeva “Heydər Əliyev” ordeni ilə təltif edilib.

Birinci Avropa Oyunları Mehriban xanımın uğurla təşkil etdiyi yeganə irimiqyaslı tədbir deyil. O, 2017-ci il mayın 12-dən 22-dək Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri olub, bu tədbirin də uğurla keçirilməsində mühüm xidmətlər göstərib.

Bundan başqa, “Eurovision” mahnı müsabiqəsinin Bakıda yüksək səviyyədə keçirilməsində də birinci xanımın səylərini qeyd etmək lazımdır. Bu yarışma dünyada ən uzun televiziya şousu, Avropa qitəsində isə ən mühüm musiqi tədbiri hesab olunur. Bu yarışmanı izləmək üçün dünyanın müxtəlif ölkələrindən Azərbaycana üz tutmuş çoxsaylı qonaqlar gördükləri qonaqpərvərlikdən razılıqlarını ifadə edib və Azərbaycanın müxtəlif sahələrdə nail olduğu sürətli inkişafın şahidi olublar. Göstərdiyi səylərə görə Mehriban xanım Əliyeva bir çox ölkələrin və beynəlxalq təşkilatların, o cümlədən Fransanın “Şərəf Legionu Ordeni”, Pakistanın “Hilal-e Pakistan” ali ordeni, Serbiya və Macarıstanın dövlət mükafatları, Rusiya Beynəlxalq Xeyriyyə Təşkilatının “Yaqut xaç” mükafatı, Dünya Səhiyyə Təşkilatı mükafatı, Avropa Olimpiya Komitəsinin fərqlənmə ordeni, beynəlxalq “Qızıl ürək” fəxri nişanı, Polşanın ali fərqlənmə ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı, Kanadanın “Dünyanın qızılgülü” mükafatı, Küveytin fəxri diplomu ilə və digər yüksək orden və medallarla təltif olunub.

Heç şübhəsiz, qeyd olunanlar, eyni zamanda, Mehriban Əliyevanın malik olduğu yüksək insani keyfiyyətlər, ölkəsinin inkişafı istiqamətində göstərdiyi səylər, beynəlxalq humanitar yardım missiyalarına verdiyi töhfələr istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda birinci xanımın yüksək imicinin formalaşmasına böyük təsir edib və onun ən yüksək vəzifəyə layiq görülməsinə yol açıb. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib və bu da ona böyük sevgi, hörmət və ehtiram hissləri bəsləyən Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanıb.

***Asya Hacızadə***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Abu-Dabi***

# Ölkəmizin futbol tarixində yeni səhifə

## *İlham Əliyev: “Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür, peşəkardır və ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edir”*

Müasir dövrümüzdə, bütün sahələrdə olduğu kimi, idmanın inkişafı da dövlətimizin diqqət mərkəzindədir. Azərbaycanda idman sahəsində əldə oluan uğurlar, nailiyyətlər, Azərbaycanın idman ölkəsi kimi dünya arenasında tanınması, məhz bu diqqət və qayğının təzahürüdür. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra idmana ayrılan diqqət, idman infrastrukturunun yenidən qurulması, paytaxtımızda, eləcə də, bölgələrdə çoxlu sayda olimpiya bazalarının tikilib istifadəyə verilməsi idmanın inkişafına təkan verməklə yanaşı, bu sahəyə olan marağı daha da artırıb. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindədir.




İdman hərəkatında uğurların əldə edilməsi, beynəlxalq səviyyədə keçirilən yarışlarda Azərbaycan idmançıları tərəfindən dövlət bayrağımızın ucaldılması, Dövlət Himinin səsləndirilməsi, Azərbaycanın çox mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi ölkəmizin dünya idmanı sahəsində yeri olduğunun bir daha sübut edir.



Özünün yüksəliş dövrünü yaşayan Azərbaycan Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, “Formula-1” yarışlarına və onlarla belə dünya miqyaslı tədbirlərə, idman yarışlarına ev sahibliyi edib və bu, davam etməkdədir. Təbii ki, bu tədbirlər təhlükəsizliyin, sabitliyin tam təmin olunduğu və əmin-amanlığın hökm sürdüyü məkanada baş tutur və idman yarışları ölkəmizdə ədalət prinsipi ilə keçirilir. Ölkəmizdə idman tədbirlərinin yüksək səviyyədə keçirilməsi və ədalətli şəkildə baş tutmasının nəticəsidir ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ümumdünya Ədalətli Oyunlar Komissiyası tərəfindən, Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə Avropa Ədalətli Oyunlar Komissiyası tərəfindən yüksək mükafatlara layiq görülüblər.

Görülən işlər, idman sahəsinin dövlət tərəfindən qayğı ilə əhatə olunması idmançılarımızın uğurlarına yeni-yeni uğurlar calayır. Bu günlərdə isə “Qarabağ” futbol klubunun UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması uğurların davamıdır. Qələbə ilə Avropada 650-700 klub arasında “Qarabağ” ilk 32-liyə daxil olub. Bu, doğrudan da, böyük nailiyyətdir. Bu nailiyyəti Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkəmizin futbol tarixində yeni səhifəsinin açılması kimi qiymətləndirib.

### “BİZ DÖYÜŞ MEYDANLARINDA DA, İDMAN MEYDANÇALARINDA DA QƏLƏBƏLƏR QAZANIRIQ”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın “Qarabağ” futbol klubunun heyəti ilə görüşü zamanı “bu gərgin mübarizədə bir daha göstərdiniz ki, Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür, peşəkardır və ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edir”, -deyərək, qeyd olunan tarixi qələbənin önəmliyinin hamımız üçün doğma və əziz olan “Qarabağ” komandasının qazandığın qeyd edib: “Qarabağ” komandası Qarabağın adını daşıyır. “Qarabağ” komandası işğal altında olan Ağdam şəhərini təmsil edir. Ona görə sizin qələbənizin çox böyük əhəmiyyəti, mənası var. Bu, sadəcə olaraq, idman qələbəsi deyil, bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir. Biz döyüş meydanlarında da, idman meydançalarında da qələbələr qazanırıq...Siz də dünən Azərbaycan bayrağını futbol sahəsində yüksəklərə qaldırmısınız. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı və xaricdə yaşayan milyonlarla azərbaycanlı sizin qələbənizə ürəkdən sevinirdi, fəxr edirdi ki, Azərbaycan komandası, xüsusilə, “Qarabağ” adını daşıyan komanda bu gün dünyanın, Avropanın ən güclü komandaları arasında yer tutub”.

Qazanılan bu tarixi qələbə Azərbaycanda futbolun inkişafından xəbər verir. Bu gün dünyada milyonlarla tamaşaçı sevgisi qazanan futbol sahəsində Azərbaycan idmançılarının da yeri və çəkisi var. Bir əsrdən artıq tarixi olan Azərbaycan futbolunun bu səviyyəyə yüksəlməsinə səbəb, əlbəttə ki, dövlət başçısının ayırdığı diqqətdir. Bu gün artıq ölkəmizdə yeni stadionlar yaradılıb. Tofiq Bəhramov adına stadion əsaslı təmir olunub, 70 minə qədər tamaşaçı tutan Bakı Olimpiya Stadionu inşa edilib. Müstəqillik dövrü Azərbaycan futbolu üçün Avropa kuboklarında iştirak etmək imkanı yaradıb. Qitədə debüt edən klublarımız arasında “Neftçi” ilk xalı qazanmaqla tarixə düşüb. Futbol sahəsinə ayrılan diqqət və mövcud ənənə uğurla davam edir. Təbii ki, UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın “Qarabağ” futbol klubunun qələbəsi ölkəmizdə idmanın prioritet sahə kimi diqqətdə saxlanılmasından xəbər verir. Ölkəmizin Avropa və dünya çempionatlarında, istərsə də Olimpiya Oyunlarında iştirakı və qələbələrin əldə olunması həyata keçirilən dövlət idman siyasətindən qaynaqlanır.

“Qarabağ” futbol klubunun heyəti ilə görüşü zamanı Cənab İlham Əliyev əldə olunan qələbələrə nəzər salarkən, Bakıda keçirilmiş Birinci Avropa və IV İslam Həmrəyliyi Oyunlarında əldə olunan tarixi qələbələri diqqətə çəkib. Avropa Oyunlarında ikinci, İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görülən Azərbaycan idmançılarının qələbəsini gənc müstəqil dövlət üçün tarixi nailiyyət olduğunu diqqətə çatdırıb: “Çox şadam və bir daha qeyd etmək istəyirəm ki, ən məşhur, ən populyar idman növü olan futbol da Azərbaycanda inkişaf edir”.

Avqustun 23-də qazanılan qələbənin təsadüfi qələbə olmadığını vurğulayan Cənab Prezident komandanın bu qələbəyə doğru neçə ildir ki, gedildiyini, həm daxili çempionatda bir neçə dəfə çempion olduğunu, eləcə də, neçə il Avropa Liqasının qrup mərhələsində iştirak etdiyini vurğulayaraq, onlarla olan əvvəlki görüşünü də xatırlayıb: “O vaxt hakimin ədalətsizliyi ucbatından siz qələbədən məhrum edilmişdiniz. Onu da xatırlayıram ki, - o vaxt da mən bunu qeyd etdim, ədalətsizliyə baxmayaraq, özünüzü çox ləyaqətlə, təmkinlə aparmısınız və ədalət öz yerini tapdı. Siz bu gərgin, çox açıq, ədalətli mübarizədə sübut etdiniz ki, Azərbaycan futbolu inkişaf edir və böyük qələbələr qazana bilər. Ona görə sizin qələbəniz təbiidir və ədalətlidir”.

Reallıqlara söykənərək bildiririk ki, bu gün “Qarabağ” futbol klubu Avropanın aparıcı klubları ilə yarışır və bu yarışlar davamlıdır. “Qarabağ” klubunun qazandığı nailiyyətdən sonra haqqında xarici ölkələrdə verilişlər yayımlanır və bu da, Azərbaycan Prezidentinin vurğuladığı kimi, ölkəmizin təbliğində çox önəmli hadisədir: “Yenə də bütün dünya görür ki, Qarabağ Azərbaycan torpağıdır. Yenə də görürlər ki, baxmayaraq Ağdam şəhəri işğal altındadır, ancaq onun təmsilçiləri Avropanı fəth edirlər. Bu, yenə də göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Onu göstərir ki, biz öz torpağımızda yaşayırıq və hamımız arzu ilə yaşayırıq ki, torpaqlarımız işğaldan azad olunsun. Hər bir qələbə, hər bir uğurumuz, istənilən sahədə uğurumuz o günü yaxınlaşdırır”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mehriban Əliyeva Azərbaycanda xeyriyyəçilik fəaliyyəti ilə bu sahədə sosial-fəlsəfi təməl yaradıb

*Birinci vitse-prezident: "Müasir Azərbaycanda xeyriyyəçilik institutunun inkişaf perspektivləri, ilk növbədə, ölkəmizin gələcək iqtisadi inkişafı, sosiomədəni modernləşməsi, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır"*



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın inkişafı, ölkəmizlə bağlı həqiqətlərin dünyada təbliği, xalqımızın maddi-mənəvi dəyərlərinin dirçəldilməsi, onların qorunub-saxlanılması, dünya xalqlarının mədəniyyətlərinə inteqrasiyası istiqamətində böyük işlər görür. Əlbəttə ki, Mehriban xanım Əliyevanın gördüyü işlər təkcə Azərbaycanda deyil, dünya miqyasında da yaxından izlənilir və yüksək qiymətləndirilir.

Bu baxımdan, Mehriban xanım Əliyeva 2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub- saxlanılması və inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinə görə YUNESKO-nun Xoşməramlı Səfiri adına, 2005-ci il iyunun 9-da ictimai, messenatlıq və xeyriyyəçilik fəaliyyətinə, həmçinin, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin messenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq da daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə, 2006-cı il noyabrın 24-də İSESKO-nun Xoşməramlı Səfiri adına, 2007-ci ildə bəşəriyyətin ali ideyalarına xidmətdə qazandığı görkəmli nailiyyətlərə görə "Qızıl ürək" beynəlxalq mükafatına, 2009-cu ildə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı"na, həmçinin, iki mötəbər mükafata - Fransa dövlətinin "Şərəf Legionu" ordeninə və YUNESKO-nun "Qızıl Motsart" medalına, eyni zamanda, islam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə, Küveyt Dövlətinin Fəxri diplomuna layiq görülüb. Bir çox filosoflar da, məhz formalaşdırdıqları etik görüşlərində ən çox xeyirxahlığın, xeyriyyəçiliyin mahiyyətini açmağa çalışıblar. Zərdüştün əxlaqi kodeks kimi ortaya qoyduğu "xoş fikir, xoş söz, xeyirxah əməl" formulu, məhz o dövrdən başlayan xeyriyyəçilik məfhumunun fundamentini təşkil edir. Sokrat da qeyd edib ki, xeyriyyəçilik əsl nəcib, alicənab insanlara aiddir. O, xeyirxahlığı əxlaq normaları, qanunlar kimi əbədi və dəyişməz hesab edirdi: "Xeyirxahlığı dərk etmək əxlaqi kamilliyə, xeyirxahlığa nail olmağa hazırlıqdır".

Aristotel də qeyd edirdi ki, dövlət vətəndaşlarından xeyirxahlıq tələb etməlidir. Çünki həmin amil bu və ya digər formada cəmiyyətin maddi və mənəvi vəziyyətini yüksəltməyə kömək edir. O, xeyirxahlığı 2 qrupa bölürdü:

- Birinci qrupu danoetik xeyirxahlıq təşkil edir. Yəni bu qrup xeyriyyəçilər, ilk növbədə, intellektual, əqli əməklə məşğul olaraq öyrənməyə, həyatı dərk etməyə nail olurlar.
- İkinci qrup xeyriyyəçilik isə etik xeyirxahlıqdır. Aristotel bu qrup xeyriyyəçiliyi insan xarakteri ilə əlaqələndirərək, yazırdı ki, insanlar belə xeyirxahlığa vərdiş nəticəsində sahib ola bilər: "Bu keyfiyyətlərə sahib olmuş insanlar isə "hamının yaxşı yaşamasını" istədiyi üçün bütün real imkanlarından istifadə edir".

Göründüyü kimi, xeyriyyəçiliyin fəlsəfi bazasının olması, bu fəaliyyətin bir institut kimi nəzərdən keçirilməsini zəruri şərt kimi ortaya qoyur. Amma xeyriyyəçilik fəaliyyətinin institut kimi formalaşdırılması üçün, ilk növbədə, cəmiyyətdə xeyriyyəçiliyə və könüllülüyə stimul yaradan ictimai şəraitin bərqərar edilməsi vacibdir.

Qeyd edək ki, şəfqət, başqasının halına yanmaq, xeyirxah işlər görmək, qonaqpərvərlik və səxavət kimi keyfiyyətlər həmişə Azərbaycan xalqının ən mühüm həyati dəyərləri olub və bu gün də olmaqdadır. XIX əsrin sonu, XX əsrin əvvəllərində bu tarixi-mədəni və mənəvi təməl üzərində Azərbaycanda filantropiyanın bir növü olan mesenatlıq geniş vüsət almışdı. Olduqca qənaətcil sahibkarlar kimi tanınmış insanlar cəmiyyətin rifahı naminə - maarif və təhsilə, mədəniyyət və incəsənətin inkişafına, mülki tikinti işlərinə külli miqdarda vəsait sərf etmişdilər. Azərbaycanın xeyriyyəçilik institutunun formalaşdırılması istiqamətində qadın xeyriyyə cəmiyyətləri də böyük işlər görmüşdü. Bu sıraya Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya və başqalarının yaratdıqları qadın xeyriyyə cəmiyyətlərini aid etmək olar. Təəssüflər olsun ki, sovet dövründə xalqımızın malik olduğu qədim xeyriyyəçilik ənənələri itib getmişdi. Məlum ideoloji və sosial-siyasi səbəblər üzündən həqiqi xeyriyyəçilik fəaliyyətinin əhatə dairəsi son dərəcə məhdudlaşdırılmış, praktik olaraq, yalnız məişətdə kömək formasında qalmışdı.

Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərmiş olur. Mehriban xanım Əliyeva müsahibələrinin birində qeyd edib ki, müasir Azərbaycanda xeyriyyəçilik institutunun inkişaf perspektivləri, ilk növbədə, ölkəmizin gələcək iqtisadi inkişafı, sosiomədəni modernləşməsi, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır: "Çünki bu amillər bir-birilə bağlıdır və bütövlükdə, xeyriyyəçilik sahəsində dəyişikliklər tələb edən, eyni zamanda, bunun üçün zəruri imkanlar yaradan prinsipcə yeni mühit formalaşdırır. Şübhəsiz, iqtisadiyyat inkişaf etdikcə, vətəndaşlarımızın maddi rifahı yüksəldikcə, əhalinin sosial müdafiəsi və dəstəklənməsi tədbirləri gücləndikcə, xeyriyyəçiliyin strukturunda əhalinin imkansız təbəqəsinə birbaşa maddi yardımın xüsusi çəkisinin azalması labüddür. Buna müvafiq olaraq, xeyriyyəçilik resursları getdikcə daha artıq dərəcədə başqa ictimai ehtiyaclara - mədəniyyətin, elmin, təhsilin, səhiyyənin, idmanın inkişafına, təbii mühitin qorunmasına və yaxşılaşdırılmasına, digər oxşar sahələrə yönələcəkdir. Azərbaycan cəmiyyətinin sosiomədəni transformasiyası xeyriyyəçilərin öz fəaliyyətlərində "ənənəvi" cəmiyyət üçün daha çox səciyyəvi olan adət və ənənələri deyil, səmərəlilik, praqmatizm, ictimai faydalılıq mülahizələrini və özlərinin üstünlük verdikləri məqamları rəhbər tutacaqlarına gətirib çıxaracaq".

Bu gün Azərbaycanda Mehriban xanım Əliyevanın rəhbərliyi ilə xeyriyyəçilik sektorunun köhnə filantropiyaya xas olan paterkalizm ruhundan azad olunması və onun mütəşəkkil, ölkə miqyasında konsolidasiya edilmiş, öz standartları, infrastrukturu və texnologiyaları olan müasir "sənayeyə" çevrilməsini müşahidə edirik. Bununla yanaşı, gənclərin xeyirxahlıq, həssaslıq, cəmiyyətin rifahı naminə xidmət etməyə hazırlıq ruhunda tərbiyə edilməsi filantropiyanın mənəvi-mədəni bazasının formalaşmasına böyük töhfə verə bilər. Buna isə, ilk növbədə, cəmiyyətin gənc nəslinin praktik xeyriyyəçilik və könüllü ictimai-faydalı işlərə geniş cəlb edilməsi yolu ilə nail olmaq mümkündür. Bu işdə, həmçinin, ailə və məktəb tərbiyəsinin düzgün qurulması da son dərəcə mühüm rol oynayır. Bir sözlə, xeyriyyəçilik gərgin və məsuliyyətli fəaliyyət deməkdir. Məhz buna uşaq vaxtlarından vərdiş etmək lazımdır.

Göründüyü kimi, bu gün ölkəmizdə fərdi və korporativ filantropiya ilə yanaşı, xeyriyyəçilik sisteminin bir sosial institut kimi iş mexanizmində xüsusi imkanları və məxsusi yeri olan mütəşəkkil vətəndaş xeyriyyəçilik sektoru formalaşır və o, gələcək perspektivlərdə daha da möhkəmlənəcək. Təbii cəmiyyətin demokratikləşməsi və humanistləşməsi yolu ilə irəlilədikcə, ölkəmizdə xeyriyyəçiliyin tərəqqisi yolundakı mənəvi-əxlaqi maneələr də aradan qalxacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışları zamanı sahibkarların sosial təşəbbüslərə daha da fəal qoşulmalarının vacibliyini də önə çəkir: "Artıq bunu etmək üçün imkanlar vardır. Beş il bundan əvvəl bəlkə də bunu tələb etmək düzgün olmazdı. Ancaq bu gün Azərbaycanda çox böyük, regional, yəni transmilli mahiyyət daşıyan şirkətlər vardır. Onların böyük dövriyyələri, böyük kapitalı vardır. Mən bunu ancaq alqışlayıram. Yəni biznesin, sahibkarlığın sosial məsələlərin həllində də iştirakı, hesab edirəm ki, həm iş adamlarına mənəvi bir qida verəcək, həm də ölkəmizin inkişafına səbəb olacaq. Bu proseslər gedir və xüsusilə, bölgələrdə sahibkarlar öz maliyyə resurslarını məktəblərin tikintisi sahəsində işə salırlar. Mən istərdim ki, bu işlər başqa sahələrdə də, əlbəttə ki, imkan daxilində görülsün. Bu işlər, əlbəttə ki, məcburi xarakter daşıya bilməz. Ancaq mən hesab edirəm ki, imkanlı firmalar, şirkətlər, iş adamları ağır vəziyyətdə yaşayanlara əl uzatsalar yaxşı olar".

Düzdür, bəzən könüllü olaraq, həyata keçirilən xeyriyyəçilik fəaliyyətləri sırf reklam xarakteri daşıdığı üçün cəmiyyət tərəfindən birmənalı şəkildə qəbul edilmir. Çünki bu xeyriyyəçiliyi edən subyektlər hansısa məqsədi güddüyündən, onların bu işi davamlı xarakter daşımır və çox məhdud olur. Amma dövlət istəyir ki, bu gün imkanı geniş olan biznes subyektləri həm maddi, həm də müxtəlif istiqamətli xeyriyyə tədbirləri həyata keçirsinlər. Bununla da, dövlətin sosial siyasətinə müəyyən mənada kömək etmiş olsunlar. Ümumiyyətlə, imkanı olan biznes subyektləri cəmiyyətdə maddiyyatla bağlı bir çox problemlərin həllinə yardım etməli birbaşa dövlət siyasətinə xidmət, yardım kimi dəyərləndirilir. Buna görə də, xeyriyyəçilik Azərbaycanda geniş miqyas almalıdır ki, cəmiyyətimizdə sosial qeyri-bərabərliyi hiss edən bir insan belə qalmasın.

Son olaraq qeyd edək ki, xeyriyyəçilik insani münasibətlərin son dərəcə incə, nəzakətli, həssas sahəsidir və fəaliyyətin bütün iştirakçılarından - xeyriyyəçilərin özlərindən, bu fəaliyyətdən bəhrələnənlərdən və ya vasitəçilərdən ümumbəşəri əxlaq, etika və nəzarət normalarına dönmədən riayət olunmasını tələb edir.

***"Səs" Analitik Qrupu***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

26 avqust 2017-ci il

# Ermənistan Hoaqlandın vurğuladığı prinsiplərin yeni olmadığını etiraf edirsə, onda artıq substantiv danışıqlara başlamaq lazımdır




Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Riçard Hoaqlandın son açıqlaması ilə bağlı AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.

**-ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Riçard Hoaqlandın açıqlaması Ermənistanın siyasi rəhbərliyində sanki ciddi təşvişə və narahatlığa səbəb olub. Müxtəlif səviyyələrdə ziddiyyətli və biri digərini inkar edən bəyanatlar verilir. Ermənistan rəsmiləri bu prinsiplərin yeni olmadığını bildirir. Ümumiyyətlə, R.Hoaqlandın açıqlaması və danışıqlar prosesi barədə nə deyərdiniz?**

-ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının Akvil, Muskoka və Los-Kabos bəyanatlarında Helsinki Yekun Aktı əsasında münaqişənin mərhələli həllinin əsas elementləri öz əksini tapıb. Bu elementlər də yenilənmiş Madrid prinsiplərinin fundamental əsasını təşkil edir. ABŞ-dan olan həmsədr Riçard Hoaqland tərəfindən də bu prinsiplər bir daha vurğulandı. Biri digərini tamamlayan bu prinsiplərin ardıcıllığında ilkin addım Azərbaycanın Dağlıq Qarabağ regionu ətrafındakı işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasıdır. İşğal faktının aradan qaldırılması ilə məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması və zəruri təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi təmin olunmalıdır. Onu da qeyd etmək lazımdır ki, Ermənistan münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini də yerinə yetirmir.

Ermənistan tərəfi bu prinsiplərin yeni olmadığını və onları qəbul etdiyini etiraf edirsə, onda artıq təfərrüatları müzakirə etmək üçün substantiv danışıqlara başlamaq lazımdır. Münaqişənin həlli ilə yaranacaq əməkdaşlıq imkanlarından erməni xalqı faydalana biləcək. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, həmsədr ölkələrin dövlət başçıları səviyyəsində qəbuledilməz hesab olunan status-kvonun dəyişdirilməsi, münaqişənin tezliklə həlli və regionda davamlı sülhün təmin olunması üçün ciddi danışıqlara hazırdır.

# Fövqəladə hallar naziri Sabirabadda vətəndaşları qəbul edib



Avqustun 25-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov Sabirabad şəhərində Saatlı, İmişli, Hacıqabul və Sabirabad rayonlarının sakinlərinin, həmçinin həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.

AZƏRTAC xəbər verir ki, fövqəladə hallar naziri tərəfindən qəbul edilən 14 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə həllini tapıb. Bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib. Bundan başqa, kadr məsələləri ilə bağlı 63, digər məsələlərlə bağlı müraciət etmiş 43 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

# Ermənistanda idmançılar hökumətin onlara laqeyd münasibətindən narazılıq edirlər



Ermənistanın iri şəhərlərindən olan Gümrünün olimpiya mərkəzinin heyəti ölkənin İdman Nazirliyindən narazılıq edir. AZƏRTAC xəbər verir ki, idmançılar çalışdıqları kompleksin qəza vəziyyətində olduğunu bildirirlər. Ona görə də valideynlər bir müddət sonra uşaqlarını buraya göndərməkdən imtina etmək qərarına gəliblər. Məsələ ilə bağlı aidiyyəti dövlət qurumlarına dəfələrlə müraciət olunsa da, problem həllini tapmır. Onlara İdman Nazirliyinin büdcəsində əsaslı təmir üçün vəsaitin çatışmadığı cavabı verilir.

Nazirliyin gənclərlə iş şöbəsinin müdiri Qraçya Rostoçyan jurnalistlərə olimpiya kompleksinin yaxşı vəziyyətdə olduğunu deyib. Bu fikir də kollektivi qəzəbləndirib. Mərkəzdən bildirilir ki, iki il əvvəl mərkəzin yenidən qurulması üçün xaricdən göndərilən iki milyon dram vəsait mənimsənilib.

Ermənistanda müxtəlif idman növləri üzrə baş məşqçilər də hökumətin ölkə idmanına laqeyd münasibətindən gileylənirlər. İdmançılar bu cür şərtlər altında çalışa bilmədiklərini deyirlər. Qeyd edilir ki, bütün idman kompleksləri sovet dövründən qalmadır və əksəriyyəti də istismara yararsız olduğu üçün bağlanıb.

# Azərbaycan ilə Britaniya arasında parlamentlərarası əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkədə səfərdə olan Britaniya parlamentinin deputatları Yasmin Qureshi, Graham Jons, Faysal Rəşid və Məhəmməd Yasin ilə görüşüb. Parlamentarilərin Azərbaycan səfirliyini ziyarət etmələrindən məmnunluğunu bildirən Əli Əlizadə ölkəmizin Britaniya ilə mövcud olan dostluq və əməkdaşlıq əlaqələrindən söhbət açıb. Bildirib ki, bu əlaqələrdə parlamentlərarası münasibətlərin xüsusi rolu var. Səfir parlamentlərarası dostluq qrupunun fəaliyyətinin və tərkibinin daha da genişləndirilməsinin önəmini vurğulayıb.

Britaniya ilə olduğu kimi, Azərbaycana yaxın dost və qardaş ölkə Pakistan ilə ölkəmizin xüsusi münasibətlərinin olduğunu bildirən səfir Ə.Əlizadə hər iki ölkənin rəhbərlərinin müsbət töhfələri ilə inkişaf edən Azərbaycan-Pakistan əlaqələri haqqında da məlumat verib. Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiyini, işğalçı Ermənistanı bir dövlət kimi tanımadığını qeyd edib. Səfir parlamentarilərə Dağlıq Qarabağ münaqişəsi, eləcədə Ermənistanın davam edən təcavüzkar siyasəti haqqında danışıb. Dağlıq Qarabağ kimi, Kəşmir münaqişəsinin də həllinin regionda sülh və sabitliyinin bərpa olunmasına müsbət töhfə verəcəyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinin zəruri olduğunu bildirən Ə.Əlizadə, beynəlxalq ictimaiyyətin təcavüzkar Ermənistana təzyiq göstərməsi zəruriliyini vurğulayıb.

Parlamentarilər Birləşmiş Krallığın və Pakistanın Azərbaycan ilə olan səmərəli əməkdaşlığından məmnunluqlarını ifadə edib, bu əlaqələrin, xüsusən parlamentlərarası münasibətlərin, dostluq qruplarının fəaliyyətinin daha da fəallaşdırılmasının önəmini vurğulayıblar. Onlar mümkün olan ilk fürsətdə Azərbaycana səfər edəcəklərini də bildiriblər.

# Hüseyn Bağırov Yardımlı rayonunda vətəndaşları qəbul edəcək

Ekologiya və Təbii Sərvətlər naziri Hüseyn Bağırov sentyabrın 8-də Yardımlı, Lənkəran, Astara, Masallı və Lerik rayonlarında yaşayan vətəndaşları qəbul edəcək. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş saat 10:00-da Yardımlı şəhərində yerləşən Heydər Əliyev Mərkəzində keçiriləcək. Qəbula gəlmək istəyən vətəndaşlardan qeydiyyatdan keçmək üçün info@eco.gov.az və ecologiya.nazirliyi@eco.gov.az elektron poçt ünvanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 168 saylı "Qaynar xətt"i, həmçinin 1 saylı ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsi ilə əlaqə saxlamaları (ünvan: Lənkəran şəhəri, Fizuli küçəsi 75, əlaqə telefonları: 012-585-50-73, 050-275-37-75, 050-369-20-77) xahiş olunur.



# Bəhruz Quliyev: "Dünyanın diqqəti Azərbaycana tərəf yönələcək"



***"Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqını təbrik edirəm. Çünki bu qələbə yalnız futbolsevərlərin qələbəsi deyil. Eyni zamanda, Azərbaycanı sevən, ölkəmizdən kənarda yaşayan insanları da qələbə münasibəti ilə təbrik edirəm". Bunu "SƏS" Media Qrupunun baş direktoru Bəhruz Quliyev UEFA-nın Çempionlar Liqası seçmə mərhələsində Ağdamın "Qarabağ" klubunun Danimarkanın "Kopenhagen" klubunu kənarlaşdıraraq, tarix yazmasına münasibətini bildirərkən deyib.***

"Biz əminik ki, qələbələrimiz davamlı olacaq"-deyə qeyd edən Bəhruz Quliyev Prezident İlham Əliyevin "Qarabağ" futbol klubunun rəhbər, məşqçi və oyunçu heyətini qəbul etməsi zamanı etdiyi çıxışına da fikir bildirib: "Qarabağ" klubunun rəhbər və oyunçu heyətlərini qəbul edən Prezident İlham Əliyev xüsusilə, qeyd etdi ki, artıq idman sahəsi dövlətin prioritet istiqaməti kimi götürülüb. Eyni zamanda, qazanılan qələbələr, əldə edilən nəticələr də göstərir ki, artıq bu uğurlar, məhz həmin siyasətin tərkib hissəsidir".

Media Qrupunun rəhbəri idmanın da bir siyasət olduğunu qeyd edərək, bunu belə izah edib ki, futbola gəldikdə, bu idman növü dünyada kifayət qədər populyarlığı ilə seçilir və ən çox izlənilən bir idman növü kimi qiymətləndirilir: "Bu baxımdan, dünya ictimaiyyətinin futbola olan marağını diqqətə alanda, deyə bilərik ki, məhz "Qarabağ"ın əldə etdiyi nəticə beynəlxalq aləmə təqdim olundu, həmçinin, beynəlxalq aləmin də diqqəti Azərbaycana tərəf yönəldi. Ən böyük siyasət faktorlarından biri də, məhz budur. "Qarabağ"ın əldə etdiyi uğurlu nəticəyə yalnız idman nəzərindən baxdıqda isə bizim hər birimiz bunu gözləyirdik".

"Cənab Prezident İlham Əliyev də öz çıxışında vurğuladı ki, ötən illər ərzində idman sahəsində əldə edilən inkişafın məntiqi nəticələrindən biri də, məhz qazanılan bu qələbədir"-deyə xatırladan Bəhruz Quliyev bildirib ki, bu, həm də müstəqil Azərbaycanda düzgün idman siyasətinin yürüdülməsinin nəticəsi olaraq qiymətləndirilməlidir: "Hələ Ulu Öndər Heydər Əliyev öz çıxışlarında deyirdi ki, sağlam bədəndə sağlam ruh olmalıdır. Bu gün həmin amil özünü təsdiq edir. Çünki haqqında danışdığımız bu uğur illərlə çəkilən əziyyətin, istiqamət kimi götürülən düzgün siyasətin bəhrəsidir. Bu gün Azərbaycanın bütün bölgələrində möhtəşəm idman kompleksləri, müasir arenalar və olimpiya mərkəzləri fəaliyyət göstərir, o cümlədən, ən müasir standartlara cavab verən böyük futbol stadionları var. 24 ildə, eləcə də son 14 ildə aparılan siyasət bu nəticələri əldə etməkdən ötrü yürüdülüb. Məsələn, illər öncə Olimpiya Oyunlarında qazanılan medalların sayı hər 4 ildən bir artır, idmançılarımız öz qələbələri ilə Azərbaycanın adını yüksəklərə qaldırırlar.

Digər tərəfdən, 2015-ci ildə ölkəmizdə keçirilən Avropa Oyunlarında Azərbaycan komanda hesabına görə ikinci yerə çıxdı. 2017-ci ildə keçirilən İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan komanda hesabında birinci yeri əldə etdi. Rioda keçirilən Olimpiya Oyunlarında Azərbaycan idmançıları dünya ölkələri sıralamasında 18 medalla 14-cü oldu. Bu, böyük nəticə idi və növbəti yarışlarda həmin nəticələrin artacağına kimsə şübhə etmir".

"Lakin bir faktı da deyim ki, digər idman sahələrindən fərqli olaraq, komanda tərkibli idman növlərində, xüsusilə futbolda biz, həmin qələbələri müşahidə edə bilmirdik"-deyə qeyd edən media qrupunun başçısına görə, ancaq son illərdə aparılan düzgün idman siyasəti nəticəsində, eləcə də ayrıca olaraq futbol siyasətində qazanılan uğur dünyanın diqqətini bizə tərəf yönəltmiş oldu: "Komanda oyunu Azərbaycanda reallaşdı, futbolumuz yeni mərhələyə qədəm qoydu. Futbolçularımız tarix yazdı. Çünki "Qarabağ" klubu Ağdamın təmsilçisidir, klubun adından da görünür ki, burada bir vətənpərvərlik ruhu mövcuddur. Orada oynayan oyunçular da etiraf etdilər ki, məhz bu amilə görə hər bir oyuna daha məsuliyyətlə yanaşırlar. Onlar anlayırlar ki, üzərlərində ikiqat məsuliyyət var. Ona görə də "Qarabağ" futbol klubu öz əzmkarlığı ilə seçilir. Nəzərə alsaq ki, ötən dəfə "Qarabağ" İtaliyanın "İnter" klubu ilə görüşündə hakim səhvinə görə kənarda qalmışdı, artıq bu il ortaya qoyulan əzmkarlıq ədalətin bərqərar olmasına zəmin yaratdı. Daha bir məqam da budur ki, 700-ə qədər klubun arasından seçilərək, Avropanın mötəbər yarışmasında oynayacaq 32 klubdan biri olasan. Məhz bu da peşəkarlığın göstəricisi olaraq qiymətləndirilməlidir. Artıq Avropanın 3 nüfuzlu klubu Bakıya gələcək. Onların təmsil olunduqları ölkələrin azarkeşlərinin də diqqətləri Azərbaycana tərəf yönələcək. Artıq dünya mətbuatı Azərbaycanın "Qarabağ" futbol klubu barədə yazır, eyni zamanda Azərbaycanda idman sahəsində əldə edilən nailiyyətlər barədə fikirlər yer alır".

Bəhruz Quliyev Prezident İlham Əliyevin "Qarabağ" klubunun rəhbərliyi, futbolçuları və məşqçi heyəti ilə görüşündə onların klubun adını layiqincə təmsil etmələri barədə fikirlərinə, həmçinin komandaya 2 milyon manat ayırması qərarına da toxunaraq bildirib ki, bu, bilavasitə ölkə başçısının həmin kluba verdiyi xüsusi qiymətdir: "Prezidentimiz həmin görüşdə çox gözəl bir fikir də irəli sürərək vurğuladı ki, Aprel Müharibəsində bizim əsgərlər düşmənə qarşı necə şücaət göstərdilərsə, "Qarabağ" futbolçuları da həmin şücaəti göstərib, tarixi uğura imza atdılar. Bax, budur ləyaqət və onun təmsilçiliyi ki, futbolçularımız onu öz alın tərləri ilə, halallıqla qazanmış oldular. "Qarabağ" bu gün öz sözünü dedi və insanları futbol meydançasına dəvət elədi. Bu, klubun ən böyük qələbəsidir. İkincisi, bu uğur Azərbaycanda idman siyasətinin düzgün aparılmasının təsdiqi oldu. Üçüncüsü, bu, Azərbaycan idmançılarının öz təsdiqi idi. Ümumiyyətlə, artıq tarix yazılıb və "Qarabağ" klubu UEFA-nın Çempionlar Liqasında öz oyunlarına çıxacaq".

***Rövşən NURƏDDİNOĞLU***



# Kənd təsərrüfatı naziri Şəmkirdə vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin həll olunması üçün tədbirlər görürlər. AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri Heydər Əsədov avqustun 25-də Şəmkir Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binasında Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa və Qazax rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl nazir Heydər Əsədov və Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyublar. H.Əsədov Şəmkir Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binası, həmçinin Dövlət Fitosanitar və Baytarlıq Nəzarəti Xidmətləri üçün yaradılan şəraitlə tanış olub. Bildirilib ki, burada yaradılan şərait rayonda aqrar sahə ilə bağlı problemlərin həllinə töhfə verəcək. Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda 30-dan çox vətəndaşın müraciətinə baxılıb. Qəbula gələn vətəndaşlar əsasən subsidiya, torpaqdan istifadə və texnikalarla təminat, ixtisasa uyğun işə qəbul və digər məsələlərlə bağlı müraciətlər ediblər. H.Əsədov vətəndaşların müraciətlərini, şikayət və təkliflərini dinləyərək, hərtərəfli öyrənilməsi və qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün nazirliyin müvafiq strukturlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya, kənd təsərrüfatı sahəsində mövcud problemlərin mütəmadi olaraq həll edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Kənd təsərrüfatı naziri Şəmkir şəhərində "Aqrolizinq" ASC-dən kənd təsərrüfatı texnikalarını lizinqə götürən hüquqi və fiziki şəxslərlə də görüşüb. Tədbirdə Şəmkir, Tovuz, Goranboy, Qazax, Samux, Gədəbəy, Gəncə, Yevlax rayonlarından olan 90 istifadəçiyə lizinq yolu ilə verilmiş ümumilikdə 2 milyon 463 min 451 manat məbləğində 148 ədəd müxtəlif kənd təsərrüfatı texnikasına 967 min 369 manat məbləğində güzəşt tətbiq edilib. Xüsusi Komissiyanın qərarına əsasən tətbiq olunan güzəşt əsasında istifadəçilərlə yeni lizinq müqavilələri bağlanılıb, o cümlədən güzəşt tətbiq edildikdən sonra 19 ədəd müxtəlif kənd təsərrüfatı texnikası istifadəçilərin mülkiyyətinə verilmiş və Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin rayonlar üzrə bölmələrində qeydiyyata alınıb. Müvafiq sənədlər vətəndaşlara təqdim edilib. Eyni zamanda, "Aqrolizinq" ASC əməkdaşları lizinq yolu ilə əldə etdikləri kənd təsərrüfatı texnikalarının ilkin dəyərinin 20 faizini ödəmiş istifadəçilərdən güzəşt üçün elektron ərizələri qəbul ediblər.

İndiyədək 7860 elektron müraciət üzrə "Aqrolizinq" ASC-dən lizinqə götürülmüş 19339 ədəd müxtəlif kənd təsərrüfatı texnikasına ümumilikdə 155 milyon 366 min 837 manat məbləğində güzəşt tətbiq edilib.

Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin "Səyyar Xidmət" Qrupu traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsinin dəyişdirilməsi, texnikaların dövlət qeydiyyatına alınması və traktor və digər mexaniki nəqliyyat vasitələrinə dövlət texniki baxışının keçirilməsi tədbirini bu gün Şəmkir rayonunda təşkil edib. Bu məqsədlə Şəmkir, Qazax, Gədəbəy, Ağstafa və Tovuz rayonlarının mexanizatorları Şəmkir rayon Kənd Təsərrüfatı İdarəsinin İnzibati binasına dəvət ediliblər. Nəqliyyat vasitələrinin texniki baxışı zamanı tüstüyə operativ nəzarət portativ cihazı, mexaniki nəqliyyat vasitələrinin sükan idarəetməsinin boşluğunun ölçü cihazı, yolda sınama metodu ilə tormoz sisteminin effektivliyinin ölçü cihazı kimi müasir cihazlardan istifadə edilib.

Həmçinin nəqliyyat vasitələrinin mülkiyyətçilərinə müəyyən edilmiş müddətdə dövlət qeydiyyatına alınmadığı və texniki baxışından keçmədiyi təqdirdə Azərbaycan Respublikasının "İnzibati Xətalar Məcəlləsi"nin 340.1-ci maddəsinə əsasən "fiziki şəxslərin əlli manat məbləğində, vəzifəli şəxslərin yüz manat məbləğində, hüquqi şəxslərin üç yüz manat məbləğində cərimə edilməsi" izah edilib. Ümumilikdə tədbir çərçivəsində 90 mexanizatorun vəsiqəsi dəyişdirilib.

# Ermənistan transmilli terrorçuların sığınacağına çevrilib

*Yayın əvvəlində Parisin yaxınlığındakı Kretey şəhərində yerli müsəlman icmasına qarşı terror aktı törədilib - sürücü avtomobili məscid qarşısında dayanan adamların üzərinə sürməyə cəhd göstərib. Xoşbəxtlikdən, hadisə zamanı ölən olmayıb, avtomobil divara çırpıldığından polis sürücünü yaxalaya bilib. Hadisədən artıq 2 aydan artıq vaxt keçsə də, terrorçunun adı hələ də açıqlanmayıb və bu, özü-özlüyündə qəribədir. Çünki indiyədək Fransadakı analoji terror hadisələri zamanı cinayətkarların adları gizli saxlanmırdı. Bəs, bu dəfə nə baş verib?*








Parisdə terror

### Erməni terroru - terror deyil?

Fransanın “Parisien” qəzetinin yaydığı məlumata görə, sürücü nə sərxoş, nə də narkotiklərin təsiri altında olub. Söhbət erməni əsilli kişidən gedir - hadisə yerindən qaçan 43 yaşlı erməni sonra polis tərəfindən saxlanılıb. O bildirib ki, Parisdə bir müddət əvvəl terror aktları törətmiş radikallardan qisas almaq istəyirmiş...

İndiyədək Avropanın müxtəlif yerlərində baş verən terror aktlarından dərhal sonra şübhəli şəxslərin adları, milliyyəti, dini baxışları haqda ətraflı məlumat yayan Qərb KİV-i bu dəfə diqqəti terrorçunun şəxsiyyətinə yönəltməyi lazım bilmədi. Axı, sükan arxasında oturub avtomobili dinc insanların üzərinə sürən şəxs Fransanın ərəb yox, erməni mənşəli vətəndaşı idi. Avropada isə daim erməni terroru haqda susmağa üstünlük veriblər, insan qırğınları ilə nəticələnən erməni cinayətlərinə göz yumulub, ittiham olunanlar isə sonradan sərbəst buraxılıb. Məhz bu ikili yanaşmanın nəticəsidir ki, ötən əsrin ortalarında erməni terroru olduqca böyük coğrafi məkanı bürümüşdü - SSRİ-dən tutmuş, Qərbi Avropa və Yaxın Şərqə qədər. 1977-ci ilin yanvarında Moskva metrosunda törədilmiş terror aktından sonra Ermənistan SSR-nin rəhbərliyi və onların Moksvadakı havadarları əllərindən gələni etdilər ki, bu qanlı cinayətdə erməni izinin olduğu gizlədilsin, mərkəzi mətbuatda isə terror haqda və onu törətmiş Akop Stepanyan, Zaven Baqdarasyan və Stepan Zatikyan haqda bir cümlə də yazılmasın.




### Moskva metrosunda terror

Təxminən eyni vaxtda Avropa və Yaxın Şərqdə də terror dalğası qaldıran erməni təşkilatı ASALA 1973-1984-cü illərdə dünyanın müxtəlif ölkələrində Türkiyə diplomatlarına qarşı 23 terror cinayəti törədib, nəticədə 31 türk diplomatı həlak olub, onlarla insan yaralanıb. Lakin bu terroru təşkil edənlər ya məsuliyyətdən yaxa qurtarıb, ya da sonradan azadlığa buraxılıblar.

### Ermənistan - terrorçuların sığındığı ölkə

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən erməni terror təşkilatları artıq yeni yaradılmış müstəqil Ermənistanın dəstəyinə də bel bağlaya bilirlər. Çünki müstəqillik əldə edəndən sonra Ermənistanın rəsmi dairələri “Daşnaksütyun”, ASALA, “Erməni Azadlıq cəbhəsi” kimi terror təşkilatları fəallarının reabilitasiyasını özləri üçün, sanki prioritet sayırlar.

### Yalnız bir neçə faktı xatırladaq

1983-cü ilin iyulunda Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 60 nəfərin yaralanması ilə nəticələnmiş terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş terrorçu Varocyan Qarabedyanın azad olunması üçün Ermənistanda dövlət səviyyəsində imzatoplama kampaniyası keçirilib və 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olunan terrorçu Ermənistanda rəsmi sığınacaq tapıb.

Məşhur terrorçu Monte Melkonyan da 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq Ermənistana gəlib və terror fəaliyyətini Dağlıq Qarabağda davam etdirib. Yeri gəlmişkən, bu gün Ermənistanın milli qəhrəmanı elan olunmuş bu terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilib. Daha bir terrorçu, Daşnaksütyun partiyasının “Dro” terror qrupunun üzvü Qrant Markaryan da Dağlıq Qarabağda terrorçu dəstələri yaradanlardan biri olub.

Ən rüsvayçı hal isə Yerevanda Hitlerin əlaltılarından sayılan, Vermaxtın erməni cəza legionunun əsasını qoymuş Qaregin Ter-Arutunyana - faşist generalı Njdeyə abidənin açılışı və bu mərasimdə Ermənistan prezidenti Serj Sarqsyanın da iştirak etməsi olub.

Rəsmi Yerevanın dövlət səviyyəsində terrorçu və faşistlərə rəğbətindən danışarkən, Ermənistan rəhbərliyində təmsil olunan şəxslərlə terrorçu liderlər arasındakı oxşarlıqlara diqqət yetirmək lazımdır. Əli minlərlə günahsız insanın qanına bulaşmış Njdeyə səcdə edən Ermənistan rəhbərliyinin özünün əlləri günahsız Xocalı sakinlərinin qanına batmayıbmı? Kütləvi soyqırımı, etnik təmizləmələrə şəxsən iştirak etmiş və bunu fərəhlə bəyan edən S.Sarqsyanın faşist ge-





neralına və "qəhrəman-terrorçulara" abidə ucaltması qəribədirmi? Məhz Serj Sarqsyan, Robert Koçaryan kimi insanların sayəsində bu gün Ermənistanda terror daxili siyasi mübarizənin, az qala, leqal vasitələrindən birinə çevrilib. Parlamentin binasında öz opponentlərini güllələmək, paytaxtın mərkəzində polis bölməsini ələ keçirərək siyasi tələblər irəli sürmək, işğal altında olan Dağlıq Qarabağdan Yerevana qeyri-qanuni silahlı dəstələr gətirərək siyasi müxalifətə hədə qorxu gəlmək - bütün bunlar Ermənistanda siyasi mübarizə metodu sayılır.

### Faşist generalı Njdenin abidəsi önündə

Digər tərəfdən, Serj Sarqsyan Ermənistanda iqtiara öz biliyi, savadı, intellekti, dünyagörüşü və ağlı sayəsində deyil, millətçi kütlənin gözündə yaratdığı "azərbaycanlıları məhv edən qəhrəman" obrazı və rəhbərlik etdiyi qanunsuz silahlı birləşmələr hesabına yiyələnib.Sarqsyanın siyasi ambisiyalarını reallaşdırmaq üçün ilkin kapitalı necə topladığı da yaxşı məlumdur-işğal olunan azərbaycanlı kəndlərindən talan edilən və Ermənistana daşınan ev əşyaları və mal-qaradan əldə olunan gəlirin həcmi yüz milyonlarla ölçülürdü.

### Erməni ictimaiyyəti qeyri-erməninin prezidentliyini qəbul edirmi?

Bu talandan gələn "kapital" olmasa Sarqsyanın sonrakı taleyi necə olardı? Axı, nəinki Ermənistan sakinləri, Dağlıq Qarabağ erməniləri belə onu heç zaman "özününkü" hesab etməyiblər və bunun da səbəbləri var. S.Sarqsyan hakimiyyətə gələndən sonra öz nəsli haqda həqiqətləri örtbasdır etməyə çalışsa da, erməni mənbələrindən məlum olur ki, Ermənistanın hazırkı prezidentinin anası milliyətcə qaraçı olub və vaxtilə zəngin bir ailədə xadimə kimi saxlanılıb. Onun ağa ilə münasibətləri nəticəsində doğulan Serj yalnız sonradan "rəsmiləşdirilib" - ağa kənizinin Azat Sarkisov adlı erməniyə ərə verib və sonradan Azat bu qadının uşaqlarına "atalıq" edib. Üstəlik, onun həyat yoldaşı Rita Sarqsyan da milliyətcə erməni yox, yezidi kürdüdür. Bu gün opponentləri Sarqsyana qarşı bu faktordan istifadə etməyə çalışırlar. Axı, monoetnik ölkə olan Ermənistanda başqa millətlərə yanaşmada daim qeyri-tolerantlıq hökm sürüb. Və özü əslən qaraçı, yoldaşı isə yezidi olan insanın ölkəyə rəhbərlik etməsi ifrat millətçiliyin hökm sürdüyü Ermənistanda etirazla qarşılanır.



Erməni qaraçısı-boşa

### Kriminal korrupsiya

Ermənistanın üzləşdiyi siyasi və iqtisadi böhran hakim klanın mövqelərini daha da laxladır. Erməni Strateji və Milli Təhqiqatlar Mərkəzinin direktoru Manvel Sarkisyan ölkənin bugünkü durumunu belə şərh edir: "Bizdə artıq feyk (saxta-red.) dövlət formalaşıb. Hətta Müstəqillik Bəyannaməsi də feykdir, Konstitusiya da feykdir".

Saxta dövlət termini, doğrudan da müasir Ermənistan üçün olduqca aktual səslənir. Ölkənin başqa dövlətin forpostuna çevrildiyi ən yüksək səviyyədə etiraf olunur, dövlətin əsas atributlarından olan silahlı qüvvələr belə başqa ölkənin ordusunun bir hissəsinə çevrilib, ən strateji iqtisadi obyektlər xarici dövlətin nəzarətinə verilib, ölkə müstəqil xarici siyasət yürütmək imkanından məhrum edilib, dövlət başçısı isə taleyüklü məsələlərlə bağlı qərar qəbul etmək iqtidarında deyil. Bütün bunlar azmış kimi, qurulmuş kriminal korrupsiya sistemi ölkəni müasir təhlükələr qarşısında daha da aciz edir. Bu sistem yalnız bir məqsədə xidmət edir - hakim rejimin zənginləşməsi! Təsadüfi deyil ki, Ermənistanda qalmış azsaylı müəssisələrin, demək olar ki, hamısı Sarqsyana və onun yaxın ətrafına məxsusdur, ölkədə xaricdən gələn pul axını da yalnız bu istiqamətə yönəldilib.

Xarici təşkilatların hesablamalarına görə, son 10 ildə Ermənistandan qeyri-qanuni yolla 7,5 milyard dollar çıxarılıb və bu vəsait prezidentin və onun komandasının hesablarındadır. Təsadüfi deyil ki, Ermənistanın müstəqillik qazanmasından bəri ölkəyə yüz milyonlarla dollar göndərən diaspor, artıq "tarixi vətənə" maddi yardım etmək istəmir. Çünki diaspor ölkənin "güclənməsi və çiçəklənməsi" üçün ayrılan vəsaitin, əslində S.Sarqsyanın və onun ailəsinin cibinə axdığının fərqindədir. Ermənistanda hakimiyyətə gəlmək üçün "Qarabağ kartı"ndan istifadə etmiş Sarqsyan, zənginləşmək üçün də eyni kartdan istifadə edir. Hələ Ermənistanın baş naziri olduğu dövrdə diaspordan gələn vəsait hesabına özünə Moskva ətrafında zavodlar almış Sarqsyan iddia edirdi ki, güya bu müəssisələrdən əldə olunan gəlir hesabına ölkənin müdafiə sahəsinə büdcədənkənar yardım edilir. Amma prezident seçildikdən sonra Sarqsyan bu zavodları satıb pulunu ABŞ-da ipotekə və mənzil bazarına yönləndirdi. Deyilənə görə, bu işdə ona ABŞ-ın Ermənistanda səfirləri olmuş Mari Yovanoviç və Jon Xeffern də kömək ediblər.

Sarqsyan prezident seçildikdən sonra da iri biznesi ələ almaq üçün "Qarabağ kartı"nı qabardır. Erməni mənbələrinin məlumatına görə, ölkə başçısı bütün iri şirkətlərə haqq qoyub və payın 40%-nə sahib çıxır. Və yeni də iddia olunur ki, guya bu vəsait ordu üçün silah-sursat almağa xərclənir.

Ermənistanda qurulmuş kriminal korrupsiya sisteminin ən üzdə olan simalarından biri prezidentin qardaşı Aleksandr Sarqsyandır. Dağlıq Qarabağda avtobus sürücüsü olmuş bu adamı bu gün Ermənistanda hamı "Saşik 50%" adlandırır, çünki prezidentin qardaşı istənilən biznes işini "həll etmək" üçün gəlirin yarısına sahib çıxır. Ermənistanda hamı yaxşı bilir ki, Yerevanda "Saşik"in xoşuna gələn istənilən restoran dərhal payın yarısını ona verməlidir. Əks təqdirdə, bütün restoran əldən çıxa bilər.

### Aleksandr Sarqsyan

Məsələn, populyar "Vanadur" restoranının sahibi Ardon Xandoyan prezidentin qardaşının təzyiqlərinə rəğmən biznesini ona güzəştə getmək istəmədiyindən, şəhərin mərkəzində qətlə yetirildi.

### Serj qardaşını təltif edir





Xaricdəki erməni mənbələrinin məlumatına görə, "Saşik" təkcə ABŞ-a 200 milyon dollar köçürüb və Kaliforniyada milyonlarla dollar qiymətində olan villa sahibidir. Bundan başqa, onun Rusiya, İspaniya, Çexiya və Bolqarıstanda da biznesi var. Qoyunçuluq və meyvə idxalı sahələri də prezidentin qardaşının monopoliyasındadır. Nəhayət, Ermənistan yollarında quraşdırılmış kamera və radarlar faktiki olaraq "Saşiko"nun şəxsi biznesidir - cərimə şəklində yığılan vəsaitin yalnız 30%-i dövlər büdcəsinə gedir, 70% isə prezidentin qardaşının cibinə axır.

Prezidentin digər qardaşı Levon Sarqsyan elitar inşaat sahəsinə nəzarət edir və fırıldaqçılığı ilə ad çıxarıb. Sxemi isə sadədir - prezidentin adından istifadə edərək xaricdən sərmayə cəlb etmək və sonra vəsaiti mənimsəmək.

Nəhayət, Serj Sarqsyanın kürəkəni, "Mişik" ləqəbli Mixail Minasyan da bu korrupsiya sxemində mühüm həlqələrdən biridir. Ermənistanın KİV sahəsinə tam nəzarət edən "Mişik" "Panarmenian", Armenia TV, Hay TV, ATV, tert.am, news.am, blognews.am, asekose.am və digər media qrup və onlayn nəşrləri nəzarətdə saxlayır. Minasyan ailənin çirkli pullarının yuyulması sxemində mühüm rol oynayır. Bir neçə il əvvəl onun gözlənilmədən Vatikana səfir təyin olunması da bu sxemlə bağlıdır: kürəkənə ailənin pullarının Avropa banklarında yerləşdirməsi tapşırılıb. Bu işdə ona ölkənin Böyük Britaniyadakı səfiri Armen Sarqsyan kömək edir.

Bir sözlə, bugünkü Ermənistan doğrudan da çox miskin təsir bağışlayır - bütün regional layihələrdən kənarda qalan, qapalı sərhədlər içində boğulan, ölkənin böyük iqtisadi müəssisələri Rusiyanın, xırda müəssisələri isə Serj Sarqsyanın ailəsinin əllində olan yoxsul, səfil, işsizliyin fəlakət həddinə çatdığı ölkə. Bütün bu proseslər ölkəni həm də demoqrafik fəlakətə doğru sürükləyir. BMT-nin dünya ölkələrində demoqrafik vəziyyət və əhali artımının dinamikası ilə bağlı hesabatına əsasən, hazırda 3,018 milyon nəfərin yaşadığı Ermənistanın əhalisi 2030-cu ildə 2,993 milyon, 2050-ci ildə 2,729 milyon təşkil edəcək...

***Kamran Həsənov,***
***politoloq***

# Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günü

***Azərbaycan muğamı dünya ölkələrində, birmənalı olaraq tanınır, qəbul edilir, dünyanın mədəni irs siyahısında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir.***



Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil edən muğam sənəti, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Muğam azərbaycanlılar tərəfindən milliözünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər, ermənilər, ləzgilər, gürcülər, avarlar kimi etnik qruplar arasında da populyardır.

Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyüyü dəstgahdır. Professional muğam sənətinin tarixi mənbələrinə diqqət yetirsək, görərik ki, 1922-ci ildə muğamın tədrisi Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına daxil edilmişdir. Tədris proqramının tərtibi sonda Azərbaycan dəstgahlarının strukturunda xeyli islahatlara və ənənəvi məhəlli məktəblərin nisbi unifikasiyasına gətirib çıxardı. Muğamın tarixinə diqqət etdikdə, görürük ki, Üzeyir Hacıbəylinin göstərişinə əsasən, o vaxtın ən nüfuzlu musiqiçilər qrupu dəstgahların ixtisar edilmiş tədris versiyalarını işləyib hazırlamışdır. 20-ci və 30-cu illərdə tədris versiyaları ilə yanaşı, böyük sənətkarların - o vaxtın ustadlarının genişləndirilmiş versiyaları da mövcudluğunu davam etdirirdi. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışlar.

Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı 2003-cü ildə YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuşdur. YUNESKO muğamı "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri" elan etmişdir.

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü "dəmir pərdə" siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. Musiqişünasların qənaətinə görə, xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş tendensiya - "doloy tar!", "doloy muğam" tədricən muğam sənətinin ictimai statusunu laxlatdı. XX yüzilin 30-cu illərindən başlayaraq, 70-ci illərədək olan dövrdə Azərbaycan cəmiyyətində muğamata primitiv sənət kimi baxış tədricən möhkəmlənməyə başladısa da, cəmiyyətdə, onun müəyyən bir hissəsində muğamatın populyarlığını azaltmadı. Muğam sənətinə münasibət yalnız XX yüzilin 70-ci illərində, YUNESKO-nun himayəsi altında ənənəvi musiqinin ilk beynəlxalq simpoziumları və festivallarının keçirilməsindən və bu hadisələrin sovet cəmiyyətində geniş əks-səda doğurmasından sonra dəyişməyə başlayır. Bu tədbirlər ənənəvi musiqi sənətinə marağın oyanmasına və ona yüksək dərəcəli professional sənət olaraq baxışların formalaşmasına rəvac verdi.

XX yüzilin 90-cı illərindən başlayaraq Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin, mütəxəssislərin və menecerlərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır.

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan muğam sənətinə bu diqqət və qayğısı muğamın təbliği, tədrisi, peşəkar musiqi ifaçılığının, müasir dinləyici mədəniyyətinin formalaşdırılmasında əvəzsiz rol oynayır. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə nəşr edilmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.

Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da muğam mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağcabədi şəhərində Qarabağ Muğam Mərkəzi inşa olunmuşdur.

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək həyata keçirilir. İlk olaraq fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub-saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond tərəfindən 2007-ci ildən başlayaraq, hər il ardıcıl muğam müsabiqəsi keçirilir.

Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə, dünyada ilk dəfə olaraq, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı keçirilib. Festival çərçivəsində keçirilən Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi-tədqiqatçılar və dünyanın bir çox ölkələrindən dəvət olunmuş xarici qonaqlar iştirak etmişlər.

2008-ci ildə, həmçinin fondun Azərbaycan muğamına həsr olunmuş yeni nəşri - "Azərbaycanın muğam ensiklopediyası" (iki cilddə) Azərbaycan, rus və ingilis dillərində nəşr edilmişdir.

Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Gününün elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Dünya miqyasında keçirilən musiqi festivalı çərçivəsində Azərbaycanın simfonik musiqisi və muğam günləri təşkil olunur. Konsertlər çərçivəsində "Qarabağ şikəstəsi", "Cahargah", "Heyratı" muğamları ilə yanaşı, Üzeyir Hacıbəylinin, Cövdət Hacıyevin, Qara Qarayevin, Müslüm Maqomayevin və digər klassiklərimizin əsərləri Kanadanın "İpək yolu" kamera orkestrinin ifasında səsləndirilir.

Bu gün Azərbaycan muğam sənətinin nüfuzu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək, bu sənəti nadir əsərtək tamaşaçılara çatdırırlar. Azərbaycan muğamı, mübaliğəsiz desək, dünyanı fəth edir. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərilərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürurlanmaqda haqlıdır.

**ZÜMRÜD**

---



## *Erməni xidmətçisi*

**RƏFİQƏ**

Bəlkə də, yaxın vaxtlarda eşidəcəyik ki, Əli Kərimli ilə Cəmil Həsənli düşmən olublar. Nəyə görə? Əlbəttə ki, xaricdən verilən pulun bölüşdürülməsinə görə! Ancaq bir məsələni də vurğulayaq ki, onların hər ikisinin bir-birinə nə vaxtsa düşmən kəsiləcəklərinin nə xalqa, nə ictimai rəyə heç bir aidiyyəti yoxdur. Ona görə olmayacaq ki, bunların xalq qarşısında bir qram da olsa belə, hörmət-izzətləri yoxdur.

Sözsüz ki, Ə.Kərimli "Milli Şura"nın, C.Həsənli də AXCP-nin maskasını cırıb, ayaqlar altına atdıqlarını görəcəyik. Çünki bir vaxtlar bunların arasındakı pərdə artıq götürülüb.

Digər səbəb isə, son vaxtlar C.Həsənlinin ABŞ-a etdiyi məlum səfərləridir. Bu "adam", Amerikaya getməsi bir yana, orada görüşdüyü insanların hər birinə, Azərbaycan dövləti haqqında elə şər və böhtan xarakterli ifadələr səsləndirib ki, qarşısında dayananlar, ilk öncə onu erməni biliblər. Sonradan bəlli olub ki, C.Həsənli erməni deyilmiş, erməni aşiqi olan azərbaycanlıymış! Bu isə Ə.Kərimlinin xoşuna getməyib. İndi oturub-durub deyir ki, vay, Cəmilə pul verdilər, mənə qalmadı. Bu da növbəti səbəb. Çünki C.Həsənli aldığı erməni pullarından Ə.Kərimliyə bir sent belə vermək fikrində deyil, ağılsız-zad deyil ha!

Səbəblər çoxdur, ancaq ən əsas səbəbi demək istərdim: Cəmil Həsənli ilə Ə.Kərimlinin günü-gündən olan-qalan nüfuzlarının əriməsidir. Artıq hər kəs bilir ki, onların agent olmaları üzə çıxıb. Hər ikisi ABŞ-ın, Fransanın, İngiltərənin və Almaniyanın maraqlarını təmin edən erməni lobbisi üçün çalışırlar. Bir sözlə, pulların alırlar, işlərini görürlər. İndi hansı daha çox alıb, o birisinə kəf gəlirsə, onu özləri bilir. Ancaq ən əsas fakt odur ki, belə agentlərin axrı yaxşı qurtarmır.

Hə, bu yerdə yeri gəlmişkən, çoxdandır ki, səsi-sorağı gəlməyən Rüstəm İbrahimbəyovun əttökən bir kəlamı yadıma düşdü: "Biz erməni xalqı ilə düşmən deyilik və gec-tez mütləq barışacağıq. Ermənistan və Azərbaycan xalqları baş verənlərə görə günahkar deyillər." R.İbrahimbəyovun həmin ifadələrinin səslənməsindən sonra, "Milli Şura"nın sədri, özünü "professor, tarixçi" hesab edən C.Həsənli, işğalçı Ermənistanın Azərbaycana tarix boyu etdiyi vəhşiliyə göz yumub, R.İbrahimbəyovun səsləndirdiyi bu cəfəngiyyata haqq qazandırdı. Bildirdi ki, Rustambek düz əxz eləyir. Bilirsiniz niyə? Ona görə ki, dost-doğma qızı Ermənistanda biznesi olan ingilisə ərə gedib! Daha doğrusu, erməni çörəyi yeyir.

Bu yerdə nə desək, qəbul olunmalıdır. Daha doğrusu, C.Həsənli kimi şəxsiyyətsizlər üçün müqəddəslik deyilən heç bir anlam mövcud deyil. Pul qarşısında vətənini, millətini, hətta doğmalarını belə qurban verən bu fərdlər sabah yenidən bir-birilərinə düşmən-zad kəsilsələr, heç də təəccüblənməyin! Çünki erməni xidmətçiləri C.Həsənli, Ə.Kərimli... kimilərin pul qarşısında vətənini, millətini, hətta doğmalarını belə qurban vermələri də təəccüb doğurmur.

# “Şahinlər” hərbi-vətənpərvərlik təmayüllü düşərgədə yeniyetmələrin yay istirahəti başa çatıb





Böyüməkdə olan gənc nəslin yay istirahətlərinin mənalı və səmərəli təşkili, onların vətənə məhəbbət, dövlətçilik ruhunda tərbiyəsi istiqamətində Səbail rayon icra hakimiyyəti və DİN Daxili Qoşunlar Komandanlığının birgə layihəsi ilə ənənəvi təşkil olunan “Şahinlər” hərbi-vətənpərvərlik təmayüllü düşərgədə yeniyetmələrin yay istirahəti başa çatıb. Bu barədə “SƏS”ə rayonun icra hakimiyyətindən məlumat verilib. Qeyd olunur ki, Səbail rayonunun Qarabağ müharibəsi veteranları və əlillərinin övladları, rayonun aztəminatlı ailələrindən olan və Qarabağ müharibəsi əlilləri və veteranlarının, aztəminatlı və imkansız ailələrin uşaqları, təhsildə və idmanda fərqlənən şagirdlər, həmçinin, “SOS-Azərbaycan” uşaq kəndində tərbiyə alan, ümumilikdə 150-dən çox yeniyetmə üçün Quba şəhərində DİN Daxili Qoşunların “N” saylı hərbi hissəsində təşkil olunmuş hərbi-vətənpərvərlik təmayullu, ödənişçiz “Şahinlər” yay istirahət düşərgəsində keçən mənalı və yaddaqalan istirahət başa çatmış və bununla əlaqədar düşərgədə təntənəli bağlanış mərasimi keçirilib.

Düşərgədə şagirdləri gələcəkdə hərbi xidmətə layiqincə hazırlamaq və istirahətlərinin daha yaddaqalan edilməsi məqsədi ilə Səbail rayon icra hakimiyyəti və Daxili Qoşunlar tərəfindən hər cür şərait yaradılmışdı. Hərbi hissədə əsgər kazarmalarından biri, məhz onlar üçün ayrılmış, burada Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevə, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevə, olkədəki ordu quruculuğuna, milli qəhrəman Mübariz İbrahimova, Daxili Qoşunların fəaliyyətinə, ənənəvi təşkil olunan “Şahinlər” düşərgənin tarixinə həsr olunmuş stendlər asılmışdır. Düşərgədə məşğələlərin hərbi nizamnaməyə uyğun tərzdə keçirilməsi uşaqların istirahətini daha da maraqlı və yaddaqalan edib.

Uşaqların Qubanın görməli yerlərinə, meşələrə, rayonun tarixi guşələrinə, o cümlədən, Qubadakı Soyqırımı Muzey-Kompleksinə gəzintiləri təşkil olunmuş, yeniyetmələr hərbi hissədə şəxsi heyətin xidməti, yaşayış şəraiti, silah və texnikası ilə yaxından tanış olmuş, xüsusi təyinatlı bölüyün məşqlərinə qatılmışlar.

Düşərgədə məktəblilərə Vətənimizin və xalqımızın tarixindən bəhs edən dərsləri müxtəlif mövzularında məşğələlər, müxtəlif maraqlı görüşlər keçirilmiş və müxtəlif filmlər nümayiş etdirilib.

İstirahətin sonuncu günündə, ənənəyə uyğun olaraq düşərgədə istirahət edən uşaqlar, müəllimlər, Daxili Qoşunların hərbçiləri, Bakıdan gəlmiş qonaqlar vida tonqalı ətrafına toplaşmış, burada yeniyetmələr öz məharətlərini ifa etdikləri mahnılar və rəqslərlə nümayiş etdiblər. Həmçinin, respublikamızın tanınmış incəsənət xadimlərinin iştirakı ilə bayram konserti təşkil olunub.

Düşərgənin bağlanışı ilə əlaqadar təşkil olunmuş tədbir hərbi orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himninin qonaqlar, şagirdlər və hərbçilərin birgə ifası ilə başlanıb.

Qonaqlar uşaqların düşərgədəki istirahəti, burada onlar üçün yaradılmış şəraitlə yaxından tanış olduqdan sonra qonaqlara “Şahinlər” düşərgəsinin fəaliyyəti, görülmüş işlər və keçirilən tədbirlər barədə məlumat verilib.

Səbail rayon icra hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramova, DİN Daxili Qoşunlar Baş İdarəsinin şöbə rəisi, polkovnik Mətləb Qənbərov, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ombudsman Elmira Süleymanova və digər qonaqlar, yeniyetmələr və hərbçilər qarşısında çıxış edərək Səbail RİH-in Daxili Qoşunlarla birgə təşkil etdiyi bu layihənin əhəmiyyətini vurğulamış, ölkə başçısı Cənab İlham Əliyevin yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın uşaq və yeniyetmələrə olan diqqət və qayğısından, bu istiqamətdə həyata keçirdiyi layihələrdən söz açmış, gələcək nəslin vətənə sevgi və məhəbbət ruhundə tərbiyəsi istiqamətində belə düşərgələrin rolunu çox yüksək qiymətləndirdilər.

Yeniyetmələr qonaqlar qarşısında hərbi keçid, müxtəlif hərbi təlimlər və istirahət dövründə öyrəndiklərini nümayiş etdirmiş, qonaqlar və yeniyetmələr Daxili Qoşunların silah və texnikası ilə tanış olmuş, Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinin çıxışı xüsusi maraqla qarşılanıb.

Sonra düşərgədə keçirilən idman və digər yarışlarda qalib gəlmiş şagirdlərə xatirə medalları və uşaqların tərbiyəsi işlərində fərqlənmiş dəstə rəhbərlərinə və hərbçilərə qiymətli hədiyyələr təqdim edilmiş, böyük konsert proqramı təşkil olunub.

Düşərgə uşaqların xatirində silinməz izlər buraxmış, maraqlı istirahətdən sonra Bakıya qayıdan yeniyetmələr və onların valideynləri bu istirahətin təşkilində əmək sərf etmiş təşkilatçılara öz minnətdarlıqlarını bildiriblər.

***Rəfiqə HÜSEYNOVA***



## YAP Nəsimi rayon təşkilatının fəal gəncləri 1 saylı Körpələr Evində olublar

Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının bir qrup fəal gənci islam dünyasının əziz bayramı Qurban bayramı ərəfəsində 1 saylı Körpələr Evində olub. Təşkil olunmuş bayram sovqatı rayon gənclər birliyinin fəal üzvləri tərəfindən uşaqlara paylanılıb.

YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə və xaricdə həyata keçirdiyi humanitar layihələrdən, bu qürurverici və humanist fəaliyyətin cəmiyyətdə yaratmış olduğu geniş xeyriyyəçilik hərakatından danışaraq, hər kəsin bu nəcib hərakata qoşulmasını insani borc və çağırış adlandırmışdı. O, Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyətinin cəmiyyətin hər üzvünə yönələn insani çağırış olmasını qeyd edərək, gənclərin bu istiqamətdəki fəaliyyətinin vacibliyini vurğulayıb. Eyni zamanda, Ulu Öndər Heydər Əliyev irsinin təbliğində misilsiz rola malik fondun müasir gənclik üçün vətənini, xalqını və dövlətini necə sevməyin və necə xidmət etməyin canlı nümunəsi olduğunu bildirib.

Tədbirin sonunda rayon təşkilatının sədri rayon gənclər birliyinin iştirakı ilə gələcəkdə də belə davamlı tədbirlərin keçiriləcəyini bildirib.

***NƏZAKƏT***

## Dövlət İmtahan Mərkəzi 600-dən çox bal toplayanlara müraciət edib

Dövlət İmtahan Mərkəzi (DİM) artıq neçə ildir ki, ali təhsil müəssisələrinə yüksək balla qəbul olan gənclərin təcrübəsinin öyrənilməsi, yayılması, ictimaiyyətə tanıdılması məqsədilə bir sıra tədbirlər həyata keçirir. Belə ki, mərkəz informasiyanın ictimaiyyətə daha da əlçatan olması üçün abiturient.az saytında ayrıca bir bölməni 600 və daha yüksək bal toplayan gənclərə həsr edib. DİM-dən AZƏRTAC-a bildiriblər ki, saytda yalnız anket doldurmuş və “Anket suallarına cavablarınızdan nümunələrin və şəklinizin abiturient.az saytında təqdim olunmasına razısınızmı?” sualına “bəli” cavabını qeyd etmiş gənclər haqqında məlumatlar veriləcək. Altı yüz və daha yüksək bal toplayan gənclər “İş nömrəsi” və “Şəxsi kabinet”in istifadəçi adından (FİN) istifadə etməklə abiturient.az saytında təqdim olunan anket-sorğu formasını doldura bilərlər.

## İstanbulu ən çox ziyarət edən turistlər arasında Azərbaycan 13-cü sırada qərarlaşıb



Bu ilin yanvar-iyul aylarında İstanbula səyahət edən azərbaycanlı turistlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz artaraq 115.010-a çatıb. Ötən il bu göstərici 103.693 olub. AZƏRTAC Türkiyə KİV-lərinə istinadla xəbər verir ki, İstanbul Mədəniyyət və Turizm İdarəsi İstanbula ən çox turist göndərən 100 ölkənin siyahısını açıqlayıb. İstanbulu ən çox ziyarət edən turistlər arasında Azərbaycan 13-cü sırada qərarlaşıb. İlk beşlikdə Almaniya, İran, Səudiyyə Ərəbistanı, İraq və Rusiya yer alıb.

# Ermənistan: yolun sonu görünməkdədir

*Əsl həqiqət çox yaxında üzə çıxacaq - bu, siyasi və s. cəhətlərdən süqut, müstəqilliyini itirməsi və xəritədən silinmək reallığıdır*

***Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam etməklə yanaşı, cəbhə xəttində yaşayan və işləyən mülki insanlarımız da davamlı atəşlərə məruz qalırlar. Heç bir beynəlxalq konvensiyalara əməl etməyən işğalçı ölkə rəhbərliyi, bu da azmış kimi, uşaqların, yaşlıların və qadınların ölümündə həyasızcasına Azərbaycan tərəfini günahlandırmağa cəhd edirlər.***



### Ermənistan və separatçı "DQR" rəhbərliyi qanun qarşısında cavab verməli olacaqdır

İllərdən bəri davam edən namərdlik və qaniçənlik amili, erməni terrorunun ali məqsədi olaraq qəbul edildiyinə görə, hərbi və insanlıq əleyhinə yönəlmiş cinayətlər onlar üçün adi hala çevrilib. İşğal olunmuş ərazilərdən bir milyondan artıq azərbaycanlının etnik təmizlənməyə məruz qalması, Xocalı soyqırımı, 4000 nəfərdən artıq azərbaycanlının hələ də itkin düşməsi bunun bariz sübutlarıdır. Elə də uzağa getməyərək, təkcə son illərdə baş verən bir neçə qanlı hadisəni xatırlaya bilərik. Misal üçün, 2016-cı ilin aprelində Ermənistanın hücumları nəticəsində, 30-dan artıq mülki şəxs yaralanıb və aralarında uşaq da olmaqla, 6 nəfər həlak oldu. Bu il iyulun 4-də isə Füzuli rayonunun Alxanlı kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində iki yaşlı qızcığaz Zəhra Quliyeva və onun nənəsi həlak oldu, daha bir mülki şəxs ağır yaralandı. Bu qanlı cinayətə görə, beynəlxalq ictimaiyyət tərəfindən kəskin qınaqla üzləşməsinə baxmayaraq, Ermənistan bu günlərdə növbəti dəfə təxribat törədərək, daha bir uşağın yaralanmasının səbəbkarı oldu. Əlbəttə, düşmənin bu cür davranışı gec, ya da tez layiqli cavabını alacaq. Lakin Azərbaycan tərəfi heç vaxt düşmənin nümayiş etdirdiyi və mülki əhalini, qocaları, qadınları və uşaqları hədəf olaraq seçməyib. Bu baxımdan, yuxarıda sadalanan, eləcə də sadalanmayan bütün cinayətlərinə görə başda Ermənistanın və separatçı "DQR" rəhbərliyi qanun qarşısında cavab verməli olacaqlar. Buna isə heç kimin şübhəsi olmamalıdır.

### Dezinformasiyalarla "uğur" qazanacağını düşünən düşmən...

Yeri gəlmişkən, ermənilərin təxribatlarının qarşısı şanlı silahlı qüvvələrimiz tərəfindən alınarkən, düşmən ağır itkilər verib geri çəkilərək, məğlubiyyətlərini saxta xəbərlər və dezinformasiyalarla ictimai rəydən gizlətməyə cəhdlər edirlər. Ancaq onların bu planları da baş tutmur. Belə ki, Azərbaycanın Müdafiə Nazirliyi də bəyan edib ki, Ermənistan tərəfi müxtəlif dezinformasiyalar yaymaqla, özünü guya Azərbaycan Silahlı Qüvvələri barədə məlumatlı göstərməyə çalışır. Əslində isə, nümayiş etdirilən "məxfi məlumatlarla dolu məktublar" son dərəcədə bisavad və səriştəsiz hazırlanır. Cəbhədəki döyüşdə uğur qazana bilməyən Ermənistan bu gün mətbuat, virtual məkan və kağız üzərində savaş açmaqla, sosial şəbəkələrdə saxta İP ilə qeydiyyatdan keçərək və azərbaycanlı bloger adı altında "döyüşərək", qismən də olsa, uğursuzluqlarının əvəzini çıxmağa çalışır.

### Rusiya mətbuatının Ermənistanı terrorçunun adının əbədiləşdirilməsi yönündə atdığı addımını hədəfə alması anlaşılandır

Söz yox ki, ermənilər terror törətməyə, insan qanı axıtmağa öyrəncəli millət olduqlarını yalnız Azərbaycanda deyil, eyni zamanda, digər ölkələrdə də nümayiş etdirirlər. Məsələn, ötən həftə Rusiyanın "km.ru" portalında terrorçu "Daşnaksütyun" Partiyasının ən iyrənc xadimlərindən biri olan Qaregin Njdeyə Yerevanda heykəl qoyulmasının kəskin tənqid edən məqalə verilib. Məqalədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvü olan Ermənistanın bu cür addımların anlaşılmaz və təzadlı olduğu qeyd edilir.

Eyni zamanda, Ermənistan prezidenti Serj Sarkisyanın iştirakı ilə Yerevanda Njdeyə abidənin ucaldılması nasizmin, neonasizmin qəhrəmanlaşdırılması, irqçiliyin, ksenofobiyanın və onunla bağlı olan dözümsüzlüyün müasir formalarının eskalasiyasına təkan verən təcrübələrlə mübarizəyə dair BMT Baş Məclisinin qətnamələrinin pozulması kimi dəyərləndirilir. Çünki Njde Hitler Almaniyasının dünyada cinayətlər törətdiyi vaxt faşist ordusunun antisovet ruporu rolunu oynamaqla, törədilən cinayətlərin bilavasitə iştirakçı olub. Belə olan halda, Rusiya mətbuatının Ermənistanı terrorçunun adının əbədiləşdirilməsi yönündə atdığı addımını hədəfə alması anlaşılandır.

### Rusiyalı tarixçi: "Ermənilər, onlara ünvanlanmış heç bir tənqidi qəbul etmir və milli maraqlarına uyğun saydıqları istənilən cinayəti isə "haqq işi" sayırlar"

Bu da azmış kimi, son vaxtlar ermənilər qaniçən, terrorçu və qeyri-humanist xalq olduqlarını nümayiş etdirməklə yanaşı, həm də "dünyanın ən qədim xalqı" olduqlarını da zorla dünya ictimaiyyətinə sırımağa çalışırlar. Avropanı, Asiyanı, hətta Skandinaviya ölkələrini özünküləşdirən sərsəm erməni "alimləri" Qədim Yunanıstan və Misir tarixlərinin əsasını qoyduqlarını bar-bar öz mətbuatlarında bağırırlar. Belə olan halda, ədalətli elmi mülahizələr ortaya qoyaraq, ermənilərin yalanlarını ifşa edən alimlər dərhal erməni lobbisi tərəfindən hədələnməyə, təqib olunmağa başlanır. Yeri gəlmişkən, burada da, qeyd edə bilərik ki, tanınmış rus tarixçisi Oleq Kuznetsov sözügedən məsələ ilə bağlı olduqca maraqlı fikirləri ilə yadda qalıb. "Son illər erməni lobbisi həmişə məni siyasi təqibə məruz qoyub"- deyə qeyd edən rusiyalı alim bunun səbəbini ermənilərin ədalət anlayışını yanlış qavramaları ilə əlaqələndirib: "Bütün ermənilər özlərini "ən qədim xalq" hesab edir və "sivilizasiyanın ali təbəqəsinə məxsus olduqlarını" düşünürlər. Buna görə də, onlara ünvanlanmış heç bir tənqidi qəbul etmir və milli maraqlarına uyğun saydıqları istənilən cinayəti isə "haqq işi" sayırlar. Buna görə terrorçuları "qəhrəman", məni isə "düşmən" hesab edirlər".

Görünən isə budur ki, artıq işğalçı, terrorçu və humanizm prinsiplərindən kənar olan bir dövlət kimi tanınmağa başlayan Ermənistan həddini aşdıqca, özünü daha dərin uçuruma doğru yuvarlamış olacaq. Çünki tarix həqiqəti heç vaxt gizlətməyib. Əsl həqiqət isə, çox yaxında üzə çıxacaq - bu, Ermənistanın siyasi və s. cəhətlərdən süqutu, müstəqilliyini itirməsi və xəritədən silinməsi reallığıdır. Həmin istiqamətə doğru isə, məhz onların özləri yol almışdı. İndi isə, artıq yolun sonu görünməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

## Mübariz Əhmədoğlu: "Ermənistanda hakim partiya Rusiyaya meydan oxuyur"



Hakim "Respublika" Partiyasının avqustun 17-də keçirilən iclası Ermənistanın siyasi mühitində formalaşmış ənənələrdən kənara çıxmalı oldu. Bu yığıncaq və orada müzakirə olunacaq məsələlər barədə əvvəldən anons edilmədi. Əksərən müzakirə olunan məsələlər və ya şəxslər mətbuatda geniş müzakirə olunur.

"1news.az"-ın məlumatına görə, bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri, politoloq Mübariz Əhmədoğlu Ermənistanın "Respublika" Partiyasının avqustun 17-də keçirilən iclası ilə bağlı xəbəri şərh edərkən bildirib:

"Respublika" Partiyasının mətbuat xidmətinin rəhbəri, parlamentin vitse-spikeri Eduard Şarmazanovun yığıncaqdan sonra verdiyi açıqlamadan üç şey bəlli oldu:

**1.** Qarşıdan vacib proseslər gəlir. Ona görə partiyanın işinə restart verilməlidir.

**2.** Ermənistan NATO-nun təlimlərində iştirak edib. Bu, Ermənistanın müstəqil seçimidir, əcəb edib.

**3.** İran Dağlıq Qarabağ məsələsinin diplomatik yolla həllinin tərəfdarı olduğunu bildirib. Bu, Azərbaycana mesajdır.

Bu üçməchullu tənliyi həll etmək bizim üçün o qədər də çətin deyil.

Politoloqun fikrincə, üç əskəranlı muşketyorun (Ermənistanın baş naziri K.Karapetyan, Dağlıq Qarabağın "baş naziri" A.Arutyunyan və Dağlıq Qarabağ "təhlükəsizlik şurasının katibi" V.Balasanyan) Əskəran rayonunda bir yerdə olması S.Sarkisyanın canına xof salıb.

"Ona görə 2018-ci ildə baş nazir postunu indiki baş nazir K.Karapetyanda saxlamaq fikrində deyil. Dəyişiklik olmalıdır. Dəyişiklik aktivlik tələb edir, vaxt azdır. Ona görə partiya işinə restart verildi. NATO təlimlərində Ermənistanın iştirakı ilə bağlı deyilənlər "Respublika" Partiyasının yığıncağındakı müzakirələrin kəskin anti-Rusiya ruhunda keçdiyinin göstəricisidir. Rusiya Ermənistanın indiki dövrdə Qərb və NATO ilə əlaqələrindən ciddi narahatdır. Ona görə, görünür, Ermənistanın qarşısında yeni tələblər qoyub.

Bu tələblərin Dağlıq Qarabağ tənzimlənməsinə aid olması daha çox ehtimal edilir. Amerikalı həmsədr Hoqland ermənilərin şərtlərini müdafiə edən kimi RF XİN əks-mövqeyə keçdi. RF XİN prezidentlərin görüşünün təşkili ilə məşğul olduqlarını bildirdi. Bir ay öncə isə, RF XİN Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil etməyəcəklərini rəsmi şəkildə bəyan etmişdi. Azərbaycan və Ermənistan prezidentlərinin görüşü Ermənistanın maraqlarına ziddir. Bu görüşdə Dağlıq Qarabağ tənzimlənməsinə yaxınlaşmaq olar. Dağlıq Qarabağ münaqişəsinin həlli dedikdə isə, Dağlıq Qarabağ ətrafındakı 7 rayonun yaxın müddətdə, Dağlıq Qarabağın özünü isə nisbətən uzun müddət ərzində Azərbaycana qaytarılması başa düşülür".

Mübariz Əhmədoğlunun sözlərinə görə, prezident V.Putin yenidən Dağlıq Qarabağ tənzimlənməsi ilə məşğul olmağa başlayıb:

"İranla əlaqəli deyilənlər yığıncaq iştirakçılarının Dağlıq Qarabağ məsələsində əsas ümidlərinin İran olduğunu göstərir. Amma bu ermənilərin növbəti özünü aldatmasından başqa bir şey deyil.

Ermənistan geosiyasət, daxili siyasət və Dağlıq Qarabağ tənzimlənməsi mövzusunda ciddi qarşıdurma dövrünə daxil oldu. Hakim "Respublika" Partiyasının son yığıncağından ortalığa çıxan nəticə budur. S.Sarkisyanın öz planına uyğun şəkildə bu dövrü başa vurması çox az ehtimal edilir. Ermənistanın yarımasılı dövlətçiliyi üzərində kölgə isə tündləşir".

## Üç saylı İstintaq Təcridxanasına narkotik maddə keçirilməsinin qarşısı alınıb

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin tabeçiliyində olan cəzaçəkmə müəssisələrinə və istintaq təcridxanalarına narkotik maddələrin keçirilməsinə qarşı mübarizə tədbirləri davam etdirilir. Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qurumun Baş İdarəsinin və 3 saylı İstintaq Təcridxanasının əməliyyat aparatlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müəssisəyə narkotik maddə keçirilməsi cəhdinin qarşısı alınıb. Cinayət Məcəlləsinin 181.2.1-ci və 181.2.5-ci maddələri ilə təqsirli bilinərək həbs edilmiş Qəmbərov Soltan Elxan oğluna dostu Masazır qəsəbə sakini Dəmirov Ramil Yavər oğlu tərəfindən gətirilmiş sovqata baxış keçirilən zaman meyvə şirəsi qabının içərisində xüsusi üsulla gizlədilmiş sellofan bükülüdən çəkisi 1,5 qram heroin aşkar edilərək götürülüb. Fakt üzrə toplanılmış materiallar hüquqi qiymət verilməsi məqsədilə Xəzər Rayon Polis İdarəsinə göndərilib.

TƏRS BAXIŞ

# Müxalifətin 2018-ci il xülyaları yuxu olaraq qalacaq

## *Səbəbləri isə çox sadə və bəsitdir*

Müxalifət düşərgəsində seçki ab-havası görüntüsü sərgilənsə də, həmin ab-havadan, ümumiyyətlə, real nə isə görmək, nəticə çıxarmaq mümkün deyil. Belə ki, özlərini aparıcı, yaxud da söz deyə bilmək imkanına malik qismində təqdim edən, daha dəqiq desək, ictimai rəyə sırıyan siyasi təşkilatların çoxu elektorat baxımından ciddi sıxıntılar keçirməklə yanaşı, 2018-ci il seçkiləri ilə bağlı ümidsiz danışırlar. Bu, ən azından, onların zəifliklərinin etirafı kimi də qiymətləndirilə bilər. Bir tərəfdən AXCP sədri Əli Kərimlinin nəzarətində olan “Milli Şura” rəhbərliyinin onlarla olmayanları real müxalifət kimi qəbul etməmələri, digər tərəfdən, Müsavat başqanı Arif Hacılının sabiq başqan İsa Qəmbərin göstərişinə əsasən, birlik çağırışları istiqamətindəki uğursuz cəhdləri, o cümlədən, ayrı-ayrı partiyaların toplantılar keçirmələrinə rəğmən, həmin toplantıların nəticəsizliyi də, belə deməyə zəmin yaradır ki, düşərgədə cərəyan edən proseslər, sadəcə, görüntü naminə atılmış, özündə artistizmi ehtiva edən teatral addımlardır.

### AXP sədri Pənah Hüseyn: “Müxalifətin vahid namizədi məsələsində sözügedən iki təşkilat 1998-ci ildə hansı münasibətdə idisə hazırda da eyni vəziyyət qalır və bu münasibət dəyişməyib”

Bu arada partiyalardan da verilən açıqlamalar, münasibətlər qeyd edilən fikirləri tamamilə təsdiqləyir. Misal üçün, AXP sədri Pənah Hüseyn ötən seçki illərini əsas gətirərək bildirir ki, onun 2018-ci ildə keçirimesi nəzərdə tutulan prezident seçkiləri ilə bağlı fikirləri müsbət məna kəsb etmir. “Adəti üzrə, seçki prosesi yaxınlaşdıqca, müxalifət düşərgəsində təmsil olunan partiyaların müxtəlif birlik və blokları yaradılır, bu və ya digər partiya arasında ikitərəfli görüşlər keçirilir, əməkdaşlıq formaları müəyyənləşdirilir”-deyə qeyd edən P.Hüseyn bunlara rəğmən, müxalifət tərəfindən edilən cəhdlərin heç birinin Azərbaycan seçicisinin diqqətini cəlb etmədiyini bildirib. SİTAT: “Yəni müxalifət düşərgəsi, ayrı-ayrı partiyalar Azərbaycan seçicisində formalaşan “bu dəfə də müxalifət qalib gələ bilməyəcək” fikrini dəyişmək imkanında deyil. Bu mənada, hesab edirəm ki, müxalifətin seçki hazırlığını müsbət qiymətləndirmək mümkün deyil. Düşünürəm ki, əksəriyyət də mənim mövqeyimlə razılaşar”.

P.Hüseyn AXCP və Müsavat partiyalarını hədəfə alaraq onların başlarının bir-birləri ilə mübarizə aparmağa qarışdığını deyib: “Digər tərəfdən, özünü ana müxalifət adlndıran Azərbaycan Xalq Cəbhəsi Partiyası və Müsavat partiyası isə daha çox bir-biriləri ilə mübarizə aparırlar və bu partiyalar arasında gedən bu mübarizə zaman-zaman müstəviyə keçir. Müxalifətin vahid namizədi məsələsində sözügedən iki təşkilat 1998-ci ildə hansı münasibətdə idisə, hazırda da eyni vəziyyət qalır və bu münasibət, çox təəssüf ki, dəyişməyib”.



Beləliklə, AXP sədri müxalifətin əsas uğursuzluq tandeminin kökündə özlərini “ana müxalifət” kimi təqdim edən cəbhəçilərlə müsavatçıları gördüyünü gizlətmir. Belə bir məqamda, düşərgənin acınacaqlı vəziyyətdə olduğunu, qarşıdurmalar çirkabından çıxa bilmədiyini aşkar görmək mümkündür.

### “Ümid” funksioneri Ənvər Ağazadə: “Azərbaycan müxalifətinin prezident seçkilərinə hazırlığı prosesi normal deyil”

İqbal Ağazadənin sədri olduğu “Ümid” partiyası da təmsil olunduğu düşərgənin uğrusuzluq zolağında məhv olduğunu etiraf edir. Məsələn, partiyanın ali məclisinin sədri Ənvər Ağazadəyə görə, prezident seçkilərinə kifayət qədər az vaxt qalıb: “Ancaq buna baxmayaraq, Azərbaycan müxalifətinin seçki hazırlığı qaneedici səviyyədə deyil. Yaxşı olardı ki, bu vaxta qədər Azərbaycan müxalifətinin vahid komandası, vahid namizədi müəyyən edilər, vahid konsepsiya ilə seçki hazırlıqlarına start verilərdi. Ancaq hələlik, bu proses baş verməyib. Ona görə də, hesab edirəm ki, Azərbaycan müxalifətinin prezident seçkilərinə hazırlıq prosesi normal deyil”.

Demək olar ki, “ümid”çinin də fikri P.Hüseynin sözləri ilə üst-üstə düşür. Lakin deyilənlər həqiqət olsa da, bu həqiqəti dərk etmək qabiliyyəti müxalifətdə, ümumiyyətlə yox dərəcəsindədir.

### Hətta belə dırnaqarası müxalifət seçkilərə 2-3 il qalmış hazırlıq aparsa belə, yenə də heç bir uğura imza ata bilməyəcək

Ancaq maraqlı məqam budur ki, müxalifətçilərin bir sıra məsələlərdə etiraflar etmələrinə rəğmən, əsl həqiqəti gizlətməyə çalışırlar. Misal üçün, seçkilər ərəfəsində çalışırlar ki, xaricdən vəsait əldə etsinlər. Çünki o da bir faktdır ki, xarici ölkələrdə Azərbaycanı gözü götürməyən qüvvələr, xüsusilə, erməni lobbisi var və bu dairələr Azərbaycanda baş verməsi gözlənilən müxtəlif ictimai-siyasi hadisələr ərəfəsində fəallaşmağa başlayırlar. Onlara xidmətçilik edənlər isə, məhz Azərbaycanın radikal və dağıdıcı qanadında cəmləşən müxalifət “liderləridir”. Onlar da bilirlər ki, Azərbaycanda marağı olan bəzi dövlətlər və təşkilatlar, ölkəmizin güclü olmasını istəməyən qüvvələr var və bunlar seçkilərdə bu və ya digər şəkildə pozuculuq işləri həyata keçirməyə və seçki prosesinin üzərinə kölgə salmağa, dövlətimiz haqqında mənfi rəy formalaşdırmağa cəhd edirlər. Əlbəttə, maliyyəni, pulparanı daim özləri üçün dövlət maraqlarından prioritet hesab edən xəyanətkarlar toplumu sözügedən dairələrin tapşırıqları qarşısında əyilir, ən rəzil addımlara gedirlər. Belə olan halda, hətta belə dırnaqarası müxalifət seçkilərə 2-3 il qalmış hazırlıq aparsa belə, yenə də heç bir uğura imza ata bilməyəcək. Çünki xalq belələrini dəstəkləmir və qəbul etmir.

***Rövşən RƏSULOV***

# Ağcabədidə qazıntı işləri aparılan ərazidə iynəli top mərmisi aşkarlanıb



Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən və Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi rayonunun Avşar kəndində qazıntı işləri aparılan ərazidə bir mərminin aşkarlanması barədə məlumatlar daxil olub. ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, məlumata əsasən agentliyin xüsusi mobil çevik əməliyyat qrupu dərhal həmin əraziyə göndərilib.

Agentliyin mütəxəssisləri tərəfindən həmin ərazidə asfalt yolun kənarında qazıntı aparılan hissəyə baxış keçirilib. Aparılan təxirəsalınmaz operativ əməliyyat axtarış tədbirləri nəticəsində aşkarlanmış bir ədəd 122 millimetrlik iynəli top mərmisi (Ş-1) götürülərək zərərsizləşdirilməsi üçün qurumun mərkəzi məhvetmə ərazisinə daşınıb. Aşkar olunmuş mərminin ətrafında 2100 kvadratmetr əraziyə yerüstü baxış keçirilib, əlavə təhlükəli əşya və qurğu aşkar edilməyib. Agentlik tərəfindən yanvarın 1-dən avqustun 25-dək, ümumilikdə, 6 min 803 partlamamış hərbi sursat, tank əleyhinə 197 mina və piyada əleyhinə 31 mina aşkar olunaraq zərərsizləşdirilib. Cəmi 4 milyon 702 min 817 kvadratmetr ərazi yoxlanılıb.

# Müxalifətin aralarındakı dava yorğan davasına bənzəyir

Uzun müddət fəaliyyətsiz və ictimai-siyasi proseslərdən tamamilə kənarda qalmış dağıdıcı müxalifət ünsürlərinin son günlər bir qədər fəallaşdıqları müşahidə olunur. Hətta onların təsiri altında olan saytlar və qəzetlərdə müəyyən siyasi məsələlərlə bağlı öz maraqlarına xidmət edən şərhlər və təhlillər verirlər. Bu məsələdə daha çox Əli Kərimlinin xarici maraqlı qüvvələrlə vasitəçilik rolunu oynayan “Azadlıq” qəzetinin baş redaktoru Qənimət Zahidin daha çox fəallıq göstərdiyi diqqəti cəlb edir. Bu məxluqat qondarma televiziya verilişi yaradaraq burada Azərbaycan dövləti və xalqı əleyhinə hər cür şər, böhtan və ittihamlar səsləndirir. Onun dayaz düşüncəsinin son nöqtəsi hər zaman Ə.Kərimlini təbliğ etmək, AXCP, “Milli Şura” haqqında gülüş doğuran təbliğat xarakterli fikirlər bildirməsi olur. Söz yox ki, “görünən dağa nə bələdçi” məsəlində deyildiyi kimi, müxalifətin də hansı imkanlara və imicə malik olduğunu hər kəs çox gözəl bilir. Məhz bu bilginin nəticəsidir ki, müxalifət 1993-cü ildən bu yana keçirilən bütün bələdiyyə, parlament və prezident seçkilərində xalqdan “yox” cavabı alıb. Təbii ki, müxalifət xalqa və dövlətə zidd siyasət apardığından, xalqımız da mövqeyini dəyişməyəcək. Yəni bundan sonra da, keçiriləcək hər hansı taleyüklü tədbirlərin son qərarında müxalifətə yer olmayacaq. Baxmayaraq ki, hazırkı məqamda görünən odur ki, müxalifətin bəzi iddialı partiya sədrləri 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə ciddi hazırlıq işləri aparırlar. Bu işlərin uğurlu proseslərlə davam etdirilməsi üçün xaricə üz tutan partiya sədrləri də olur. Buna misal kimi, “Milli Şura”nın sədri Cəmil Həsənlinin və Müsavat başqanı Arif Hacılının xarici ölkələrə tez-tez səfər etmələrini göstərmək olar.

### Cəmil Həsənli İsa Qəmbərə güzəştə getməyəcəklərini bəyan etdi

Maraqlı məqam ondan ibarətdir ki, A.Hacılı və C.Həsənli xaricə səfərlər etsələr də, onların prezident seçkilərində iştirakı nəzərdə tutulmur. Yəni Müsavatdan İsa Qəmbər, “Milli Şura”dan isə Ə.Kərimli prezidentliyə namizədliklərini irəli sürməyə hazırlaşırlar. Bunu “Milli Şura”dakı və Müsavatdakı mənbələr də təsdiqləyirlər. Daha doğrusu, artıq Müsavat yetkililəri namizədlərinin İ.Qəmbər olacağını bəyan ediblər. AXCP-dəki ab-hava və C.Həsənlinin nala-mıxa vuran fikirləri də, onu deməyə əsas verir ki, 2013-cü ildə prezidentliyə namizəd olan C.Həsənli bu dəfə Ə.Kərimlinin xeyrinə iddiasından imtina etməli olacaq. Əks-təqdirdə, C.Həsənli cəbhəçilərin təzyiq və təhqirləri ilə üzləşməli olar. Hətta bir qədər də dərinə gedilsə, C.Həsənli “Milli Şura”nın sədrliyindən uzaqlaşdırıla bilər. Ona görə də, C.Həsənli siyasət meydanından təhqir olunmuş formada uzaqlaşdırılmamaq üçün acı taleyi ilə barışmalı olur. Onun “prezidentliyə namizədlərin müəyyənləşdirilməsində bizim öz namizədimiz olacaq. İ.Qəmbərin xeyrinə namizədlikdən imtina etmək fikrində deyilik” deyə bildirməsi də, artıq məsələnin Ə.Kərimlinin xeyrinə həll olunduğunu göstərir.

C.Həsənlinin xaricə səfərləri, sadəcə, prezident seçkilərində ərəfəsi maddi və mənəvi yardım əldə etməkdir. Həm də “Milli Şura”nın namizədi olacaq Ə.Kərimli haqqında xarici təşkilatlarla müzakirələr aparmaq və onlardan müsbət razılıq əldə etməkdir. Çünki bəzi xarici dairələrin Ə.Kərimliyə qarşı münasibətləri heç də birmənalı deyil. Ona qarşı mənfi münasibət mövcuddur. Məhz buna görə də, C.Həsənli mümkün vasitələrdən istifadə etməklə, xarici dairələrin fikrini dəyişməyə çalışır. Yayılan məlumatlara və “Milli Şura”dakı mənbənin dediyinə görə, hələ ki, əksər xarici qüvvələr Ə.Kərimliyə qarşı münasibətlərini dəyişmək fikrində deyillər. Amma aparılan danışıqlar, onu deməyə əsas verir ki, mövqe dəyişkənliyi ola bilər. Başqa cür də mümkün deyil. Çünki həmin yaramaz və məkrli qüvvələrin başqa namizədləri də yoxdur. Yəni tərəflərin maraqları onları eyni mövqedən çıxış etməyə məcbur edir. Amma maraqların hansı məqsədlərin əsasında qurulmasından asılı olmayaraq, istər yerli, istərsə də, xarici qüvvələrin planları baş tutmayacaq.

***İ.ƏLİYEV***

***Son günlər AXCP sədri Əli Kərimlinin vaxtilə ona yaxın olmuş şəxslər tərəfindən ifşa olunmasına daha bir nəfər də qoşuldu. Bu şəxslərdən biri də uzun müddət cəbhəçilər arasında fəallığı ilə seçilən Şahin Həsənlidir. Əslində, belə ifşalara təəccüblənməyə də dəyməz. Çünki baş verənləri olduğu kimi dərk edənlər, eyni zamanda, müxalifət kuluarlarında cərəyan edən olayları və bu olaylarda hansı "liderin" hansı oyunbazlıqlardan çıxmalarını bilənlər bilir. Sadəcə, baş verənlərin ictimailəşdirilməsi, bir daha sübut edir ki, ənənəvi müxalifətdə hər şey heç də normal deyil. Bu anormallığı isə biz - iqtidar jurnalistləri deyil, elə özləri ifşa edirlər.***

# Samiraldo nəyə görə Əli Kərimlidən reytinqlidir?

## *Yaxud AXCP sədrinə öz içindən növbəti zərbə!*




### Şahin Həsənli: "Yurd"da təmsil olunan və bu strukturun formalaşmasına kifayət qədər əmək sərf etmiş bir insan kimi baş verənlərə laqeyd yanaşa bilmərəm..."

Məhz Ş.Həsənlinin də AXCP təəssübkeşi olaraq anlatmağa çalışdığı budur ki, məqsədi təmsil olunduğu partiyaya qarşı deyil, bu partiyanı monopoliyalaşdıran Ə.Kərimlinin çirkinliklərini ortaya çıxarmaq, oyunbazlıqlarını sübuta yetirməkdir. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, məhz AXCP daxilində, bilavasitə Ə.Kərimliyə məxsus olan "Yurd" qruplaşması yarandığı dövrdən etibarən orada mövcud olan Elçibəy ideologiyasına qarşı çıxıb. Təkcə, bir çoxlarına bəlli olan "Yurd" həqiqətləri" kitabına müraciət edilərsə, orada Ə.Kərimlinin və ətrafının hansı siyasi fahişəliklərlə məşğul olduğunu görmüş olarıq. İnternet resurslarında bu barədə kifayət qədər dolğun informasiyalar mövcuddur. Məhz bu səbəbdən, Ş.Həsənli Ə.Kərimlini ifşa edən fikirlərində bu qeydi edib: "Uzun müddətdir "Yurd"da təmsil olunan və bu strukturun formalaşmasına kifayət qədər əmək sərf etmiş bir insan kimi baş verənlərə laqeyd yanaşa bilmərəm..."

Nəticədə, özünü Ə.Kərimlini uzun müddətdir ki, tanıyan bir şəxs kimi təqdim edən Ş.Həsənli əlavə edib: "Onun insanlardan öz məqsədləri üçün istifadə edərək, sonradan yararsız əşya kimi tullamasının, şəxsi maraqlarının təmini məqsədilə partiya liderləri arasında intriqa yaratmasının, dediyi fikirlərə alternativ fikirlər söyləyən şəxslərə qısqanc yanaşmasının, uzun müddət kin saxlamasının, təşkilat üzvləri ilə məharətlə manipulyasiya etməsinin şahidi olmuşam."

### Əli Kərimli onu ifşa edən cəbhəçilərin profillərinə hansı yollarla müdaxilə edir?

Xatırlatmaq yerinə düşərdi ki, AXCP sədrinin keçmiş cangüdəni Kərim Mehdiyevin də, bir müddət əvvəl, KİV-lərdə yayılmış müraciəti ilə bağlı Ə.Kərimli saxta əks-kampaniya aparıb və Ş.Həsənli bu saxta kampaniyada bəzi sirlərin üstünü açıb. Daha dəqiq desək, guya K.Mehdiyev Ə.Kərimli ilə bağlı ifşaedici fikirlərini səsləndirəndən sonra "peşman" olub və sosial şəbəkədəki profilində təkzib verib. Ancaq bu, həqiqətənmi belədir? Əlbəttə ki, yox. Məsələ ondadır ki, Ş.Həsənli K.Mehdiyevin uzun müddətdir ki, xaricdə yaşadığını, bu müddət ərzində, Ə.Kərimli ilə münasibətdə olmadığını bildirib. Ona görə də, K.Mehdiyevin "təkzibi" yalandır. SİTAT: "...O, belə bir şey yazmayıb. Profilə Ə.Kərimli özü şəxsən müdaxilə edib və saxta təkzib statusu yazıb. Partiya rəhbərliyi ilə daim ünsiyyətdə olan şəxs kimi bunu tam əminliklə deyirəm, sizlərin əmin olması üçün isə, buna dair təkzibolunmaz fakt gətirirəm. Cümlənin başlanğıcında "Dostlar" müraciət formasından yalnız və yalnız Əli bəy istifadə edir və K.Mehdiyevin facebookda indiyədək olan yazışmalarını oxusanız, heç birində "Dostlar" xitabına rast gəlməyəcəksiniz. Ə.Kərimli onun profilinə nə vaxt müdaxilə edibsə, o zaman da "Dostlar" ifadəsi işə düşüb. Yalnız Ə.Kərimli öz facebook paylaşımlarını, adətən, "Dostlar" sözü ilə başlayır. Bir də necə oldu ki, K.Mehdiyev həmin günü girdi "facebook"a, təkzib statusunu yazdı və o andan sonra onun səhifəsindən, nəinki Əli bəyə dəstəkverici məlumat yayılmayıb, heç ümumiyyətlə, yayım olmayıb. Bir daha deyirəm, K.Mehdiyevin bu barədə xəbəri yoxdur, sadəcə, əksər üzvlərin parol və loqini dələduz Əli "bəydə" olduğuna görə, o, ictimai rəyi çaşdırmaq üçün bundan məharətlə istifadə etmişdir. Deməli, o, nəinki dələduz, həm də başqasının kompüter məlumatlarına müdaxilə edən cinayətkardır".

### Əli Kərimli Gözəl Bayramlını da Fuad Qəhrəmanlı kimi işlədib və tullayıb

Beləliklə, Ə.Kərimlinin birinci ifşası tam sübutlarla ortaya çıxarılır. Ancaq bu da son deyil. Məsələnin maraqlı məqamlarından biri də, yuxarıda da qeyd edildiyi kimi, AXCP sədrinin insanlardan yalnız öz şəxsi mənafeyi, siyasi ambisiyaları üçün istifadə edib, sonradan həmin insanları kənara atmasıdır. Ş.Həsənli növbəti sübutunu, danılmaz fakt olaraq ortaya qoyub. İki fotoşəkil göstərən Ş.Həsənli burada müqayisə aparıb: Birinci şəkil Əbülfəz Elçibəyin məzarı önündə, digəri isə bir müddət bundan öncə məlum məsələlərə görə həbs edilən müavini Gözəl Bayramlının məhkəməsi keçirilən binanın qarşısındadır. Birinci şəkildə Ə.Kərimlinin ətrafına kifayət qədər çox insan, digərində isə 3-5 nəfər adam yığılıb. Məhz bu müqayisəni ortaya çıxaran Ş.Həsənli sübuta yetirdi ki, Ə.Kərimli yalnız özünürəklam ilə məşğuldur və onun çirkin siyasətinin güdazına gedən bir çox insanları istifadə edib. Elə Nardaran hadisələrində həbs edilən Fuad Qəhrəmanlı və sairləri kimi...

Bu səbəbləri yazan Ş.Həsənli qeyd edir: "Fərqi görürsünüzmü? Ə.Kərimli özünün "böyüklüyünü", "yek müxalifət lideri" olduğunu, son dövrlər ona qarşı təşkil edilən "hücumlara" baxmayaraq, hələ də ayaqda dayandığı görüntüsü yaratmaq, bir sözlə, özünü reklam etmək üçün nə qədər canfəşanlıq göstərib..."

Daha bir xatırlatma edərək, deyə bilərik ki, K.Mehdiyev və Paşa Umudov da öz ifşaedici açıqlamalarında bildirmişdilər ki, Ə.Kərimli uzağı həbs olunmuş cəbhəçi ailələrin bəzilərinə gedərək, birdəfəlik 300 AZN yardım göstərirmiş (?!-R.N.). Yəni onun çirkin siyasətinə güdaza gedənlərin, tələsinə düşənlərin, həbs olunanların qiyməti maksimum olaraq 300 manat dəyərindədir...

### İTTİHAM: "Azərbaycan müxalifətində bir çox yeniliklərin - siyasi mədəniyyətsizliyin, siyasi tərbiyəsizliyin, siyasi hoqqabazlığın, siyasi intriqanlığın və ən nəhayət, siyasi dələduzluğun əsasını qoya bilmisiniz"

Nəticə etibarı ilə Ə.Kərimlinin onun "siyasətinə" dəstək verməyənləri "satqın" adlandırmasına cavab olaraq, Ş.Həsənli qeyd edib ki, AXCP-də ən yaxşı halda, onun dedikləri ilə oturub-duran əsas "fiqur", məhz sabiq ADP funksioneri, partiyasına xəyanət edərək AXCP-yə keçən və sədr müavini vəzifəsinə təyin olunan müqəvva Nurəddin Məmmədlidir. SİTAT: "Sizlə eyni cür düşünməyən - satqındır, alternativ fikir ortaya qoyan - satqındır, sizə qarşı olan - satqındır, həbsdən vaxtından əvvəl çıxan siyasi dustaqlar - satqındır, hakimiyyət nümayəndələri ilə ünsiyyət saxlayan - satqındır, Ə.Kərimliyə rəqabət yarada biləcək partiya rəhbəri, yaxud ictimai lider varsa - satqındır. Bəs yaxşı, kim satqın deyil, ümumiyyətlə, bu satqınlığın kriteriyası, ölçü vahidi, etalonu varmı? Belə bölücülük prinsipləri ilə Azərbaycan müxalifətində bir çox yeniliklərin - siyasi mədəniyyətsizliyin, siyasi tərbiyəsizliyin, siyasi hoqqabazlığın, siyasi intriqanlığın və ən nəhayət, siyasi dələduzluğun əsasını qoya bilmisiniz".

### "DQR"ə qanunsuz səfərlər edən Ştetina ilə Əli Kərimlini bağlayan tellər

Bu da son deyil. Misal üçün, bu gün Ə.Kərimlinin ətrafında dolaşaraq, onun qazancının qalıq-quluqlarına tamah salanlar arasında reneqat Gültəkin Hacıbəylinin, Cəmil Həsənlinin, N.Ədilovun da paxırlarını açan Ş.Həsənli dolayı yolla bənzər tiplərin, əslində, bir-birilərini tamamladıqlarına işarə edib: "Baxın, görün, kimdir bunlar: opportunist G.Hacıbəyli (çox hörmətli, özünü ziyalı sayan Natiq bəy Ədilovun diqqətinə çatdırıram ki, bu söyüş deyil, sadəcə, bir siyasi düşərgəni ataraq, digərinə keçən politikanlara belə deyilir), 2005-ci ildə AXCP sədrinin müavini mandatını deputat mandatına dəyişən, yazdığı kitabların bir çoxunun maliyyəsi hakimiyyət tərəfindən ödənilmiş C.Həsənli, öz əmisi qızı olan həyat yoldaşını və iki azyaşlı övladını Sabirabadda ataraq, onların hazırkı yaşayış çətinlikləri barədə xəbəri belə olmayan N.Ədilov, Qarabağa dəfələrlə qeyri-qanuni səfərlər etmiş avrodeputat Yaromir Ştetina ilə Azərbaycanda demokratik dəyişiklikləri müzakirə etməsi ilə öyünən Qənimət Zahid, "Azadlıq" qəzetinin maliyyə direktoru Faiq Əmirliyə qarşı prokurorluqda ifadə verərək, Avropaya qaçmış Rahim Hacıyev və bunlara bənzər onlarla digər şəxslər. Bunlar satqın deyilmi?"

Nəhayət, Ə.Kərimlinin öz oğlunu hərbi xidmətə yollamaqdan imtina etməsini də satqınçılıq adlandıran. Ş.Həsənli Ə.Kərimliyə aid olan bütün kartları açaraq, ictimailəşdirməyə nail olub.

### Müxalifətdə Əli Kərimli qədər alçaq hisslərə malik ola biləcək ikinci şəxs axtarılsa da, Şahin Həsənli bu qədər "nüfuza malik" digər müxalifətçi tapa bilmir

Digər tərəfdən, başqa dəlillər və arqumentlər gətirən cəbhəçi növbəti faktları da ortaya çıxarmış olub: "Necə olur, KXCP-dən "Milli Şura"ya gələn Oqtay Gülalıyev satqın olmadı, amma KXCP-də təmsil olunan digər şəxslərin hamısı satqın çıxdı? Müsavatdan "Milli Şura"ya gələn, həbsdən vaxtından əvvəl buraxılan Tofiq Yaqublu, uzun illər Müsavatda təmsil olunmuş, indi isə ətrafınızda fırlanan İbrahim İbrahimli satqın çıxmadı, lakin həmin partiyaya sədaqət göstərən digər şəxslərə, həbsdən vaxtından əvvəl çıxmış Yadigar Sadıqova, "obyektiv insan" (dırnaqlar bizimdir-R.N.) kimi tanıdığımız Xədicə "xanım" İsmayıla sizin göstərişinizə əsasən, fürsət düşən kimi, sosial şəbəkələrdə olmazın təhqirlər yazıldı, satqın damğası vuruldu. İlqar Məmmədovun həbsdən buraxılmamasının səbəbinin guya hakimiyyətin onu sizə qarşı alternativ kimi yetişdirməsi barədə partiya üzvlərimizə verdiyiniz izahatlara nə deyək?"

Ş.Həsənli müxalifətdə Ə.Kərimli qədər alçaq hisslərə malik olan ikinci siyasətçi tanımadığını da bildirib və qeyd edib ki, o, məhz bu çirkin hissləri ilə ilə düşərgədə intriqalar salıb.

Beləliklə, Ə.Kərimlinin sosial şəbəkələrdə saxta profillər vasitəsi ilə siyasət yürütməsini və get-gedə "like"larinin azalmasını müşahidə etdiyini bildirən Ş.Həsənli sonda çox maraqlı bir araşdırmasını da nümayiş etdirmiş olub. O, şou-biznes sahəsində özünəməxsus qeyri-standart tərzləri və Samiraldo adı ilə tanınan şəxsin sosial şəbəkədəki bəyənmələrinin sayını Ə.Kərimlinin, onun saxta profillərinin, eyni zamanda G.Hacıbəylinin, C.Həsənlinin səhifələrindəki bəyənmələri ilə müqayisə edib. Bəlli olub ki, Samiraldo təkbaşına qazandığı bəyənmələri ilə, yəni "like"ləri ilə bunların hər birindən nüfuzlu, qiymətləndirilən bir fiquruymuş...

Bizcə, həmin fakt, özü-özlüyündə, hər şey tam çılpaqlığı ilə ortaya qoymuş olur. Əlavə şərhə ehtiyacın qalmadığı üçün bu şərhi elə digər cəbhəçilərlə yanaşı, ictimai rəyin özü də qiymətləndirsin, amma ədalətlə!

***Rövşən NURƏDDİNOĞLU***

# Qədim "el" ənənəvi türk dövlətçiliyinin tarixi forması kimi

***Dövləti çox vaxt iqtisadi gücü nümayiş etdirən siyasi vasitə hesab edirlər. Qədim türklərdə cəmiyyəti idarəetmə forması isə hərbi demokratiyaya əsaslanan "el" idi. El, əslində, dövlətlə cəmiyyətin vəhdəti idi. Türklər öz dövlətlərini "el" və yaxud "il" adlandırırdılar. Bəzi tədqiqatçılar, xüsusən, S.E.Malov səhv olaraq bu ifadəni "tayfa ittifaqı" kimi tərcümə edir, eyni zamanda, onun "dövlət", "xalq" mənaları verdiyini göstərir. Tədqiqatçıların əksəriyyəti bu fikrə tərəfdardırlar. Bernştam "el"i aristokratik quruluş kimi səciyyələndirir. O, belə hesab edir ki, "el" türk ənənələrinin birləşməsidir. L.Qumilyov "el"i, al-dövlət təşkilatının ifadəsi, türk adı ilə bizə bəlli olan xalqın təcəssümü kimi səciyyələndirir.***

Türkiyəli tədqiqatçı Oğuz Fəruq türk ellərinin ana vətəni və dövlət quruluşundan bəhs edərək yazır: "Türkcə danışan kütlənin Orta Asiyadakı əsl ana yurdunun hara olduğu üzərində keçmişdən bəri bəzi fikirlər irəli sürülmüşdür. Bizim fikrimizcə, bu kütlənin vətəni, əsasən, 145-1500 en dairələri arasındakı Abakan, Tuba ərazisinin də daxil olduğu Kəm irmağı, yəni Yenisey boyu və ona yaxın yerlər olmalıdır.

Türkcə danışan kütlənin qədimlərdən bəri bir-birindən siyasi səciyyələri, dilləri və ya ləhcələri, ictimai səviyyələri, hətta sifət və bədən quruluşları ilə ayrılan müxtəlif qövmlər kimi, bu qollar da budun, yəni qövm adlanır. Ancaq bu qolların ortaq bir ada sahib olduqları barədə əlimizdə heç bir dəlil yoxdur.

VI əsrdə türkcə danışan ellərdən (qövmlərdən) ancaq biri türk adlanırdı. Bu elin adı türk (o zamanlar törük-türük) sözünün yörük (yürümək) kimi "törümək" məsdərindən olduğu həqiqətdir. Bu türk qövmü həmən əsrdə türk və monqol dünyasının hakimləri olan juan-juanları (aparlar-avarlar) məğlub edərək, Çin səddindən Xəzər dənizinə qədər uzanan çox böyük bir ərazidə imperiya yaratmış və türkcə danışan bütün qövmləri öz idarəsi altına almışdı. Bu hadisə Yaxın Şərqdə türk adına bu dildə danışan bütün qövmləri əhatə edən ümumi bir məna qazandırdı. Lakin türk sözü, məhz türkcə danışan qövmlər arasında bu cür geniş bir məna kəsb edə bilmədi. Türklər yalnız islamı qəbul etdikdən sonra, Yaxın Şərqdəki dindaşlarından türk kəlməsinin bu geniş mənasını öyrəndilər. Oğuz türklərinə də türk adını verənlər Yaxın Şərq müsəlmanları olmuşlar.

Göytürk İmperatorluğu dövründəki türk ellərindən biri də doqquz boydan ibarət olan Oğuzlar idi. Onlar VII əsrin ikinci yarısı ilə VIII əsrin birinci yarısı arasında Tula çayı boyunda yaşayırdılar. DoqquzOğuzlar türk eli ilə birlikdə Göytürk dövlətinin əsasını təşkil edən ikinci ünsürdür. Bunlar göytürklərin siyasi xələfləri olan uyğurlar dövründə də eyni mahiyyətdə bir rol oynamışlar. DoqquzOğuzların aqibəti məchuldur. X əsrdə Sır Dərya (Ceyhun) sahillərində yaşayan Oğuzların birbaşa bu DoqquzOğuzların törəmələri olmaları ehtimalı azdır. Bunun əvəzində, Sır-Dərya Oğuzlarının əvvəlcə Qərbi Göytürk birliyinə mənsub olduqlarını irəli sürmək ağlabatan bir ideya (fərziyyə) kimi görünür".

L.Qumilyov türklərdə "İl-xan" titulu olduğunu və onun "xalqların hakimi" mənasında işləndiyini göstərir. Başqa bir termin olan "Qurxan" titulu isə "Tayfalar konfederasiyasının xanı" mənasında işlənir.

Digər bir tədqiqatçı S.P.Tolstov "el" sözünün "siyasət mənasında dövlət" kimi işləndiyini iddia edir.

L.Qumilyov "El"i orda və tayfanın birgə mövcudluğu forması kimi səciyyələndirir: "Dövləti saxlamaq zərurəti bəyləri və budunu rahat buraxmırdı, çünki yalnız müharibəyə daim hazır vəziyyət elin mövcudluğunu təmin edirdi. Hərbi məğlubiyyət, diplomatik səhv, tək-tük xəyanət halları, hətta adicə səhlənkarlıq elin mövcudluğunu təhlükə altında qoyurdu". Müəllif ilkin orta əsrlərdə Asiyanın mərkəzi hissələrindəki siyasi qurumların ömrünün o qədər uzun olmamasını, məhz bu səbəblə izah edirdi.

Türk-Oğuz elatının islamlaşmasının həm türk dünyasına, həm də islam aləminə faydası olduğunu göstərən Faruq Sümər yazır: "Oğuzlardan 15-20 min nəfərlik ordu çıxara biləcək bir elat (1035-ci ildə Xorasana keçmək məcburiyyətində qalmışdı. Bu sahə isə zənginliyi, hərbi və mülki təşkilatının mükəmməlliyi ilə yalnız islam aləminin deyil, dünyanın ən qüdrətli dövlətlərindən biri olan Qəznəvi imperiyasına aid idi. Bu Oğuzlar Səlcuq ailəsinin başçılığı ilə 5 il sürən fasiləsiz və ağır bir mübarizə sonunda Qəznəvi imperiyasına qalib gələrək, Xorasanda öz dövlətlərini qurdular (1040-cı ildə 16 min atlı ilə). Yalnız "fövqəladə" sözü ilə vəsflənə biləcək bu hadisənin baş qəhrəmanı, ilhamçısı və icraçısı Səlcuqun nəvəsi Çağrı bəy idi. Səlcuq dövlətinin hakimiyyəti çox qısa zamanda Bizans imperiyası hüdudlarına qədər uzandı. Bu müvəffəqiyyətin qazanılmasında Sır-Dərya boyundakı böyük ana Oğuz kütləsindən bir-birini izləyən dalğalar halında kı bölüklərin İrana gəlməsi çox mühüm bir amil olmuşdur.

Oğuz türklərinin islam dünyasında görünmələri, doğrudan da, bu aləm üçün xoşbəxt hadisədir. Çünki həmin əsnada Yaxın Şərq islam dünyası Bizans imperiyası qarşısında özünü müdafiə edə bilməyəcək vəziyyətdə idi. İslam aləmi mənən o qədər çürümüşdü ki, 3-4 minlik bir Oğuz bölüyü Fələstinlə Suriyanın böyük bir qismini asanlıqla ələ keçirmişdi. Şərqi və Cənubi Anadoludakı müsəlmanları qovaraq Anini (Qarsın şərqində), Antakya və Urfanı, Lazistanı geri almış, Hələb ətrafını da nüfuz və hakimiyyətinə daxil etmiş Bizansın yeni bir həmlə ilə Suriyaya, hətta Misirə də hakim olaraq islam dünyasının başına daha böyük fəlakətlər gətirməsi hər an gözlənilirdi. Ərəblərin özünü toplayıb Bizansın yeni hücumlarına sinə gərməsi, ancaq bəlkə ikinci peyğəmbərin zühuru ilə mümkün ola bilərdi. Bu səbəblə, islam aləmi Oğuz türklərinin şəxsində özünü Bizansdan qoruya biləcək yeni və gücü tükənməyən bir ünsürə qovuşmuş oldu. Gerçəkdən də, Yaxın Şərq islam dünyasının bu yeni müsəlman ünsürü yalnız Bizans təhlükəsini dəf etməklə qalmayaraq, ərəblərin heç vəchlə bacarmadığını da bacarıb, Anadolunu fəth etmiş və Bizansı bir daha islam dünyasına təhlükə təşkil etməyəcək bir vəziyyətə salmışdır.

Oğuz türkləri ana yurdlarından gətirdikləri dövlət təşkilatına aid təsisat və ənənələrini islam dünyasında da davam etdirdilər".

Türk dövlətçiliyinin türk fəthinin tarixi əhəmiyyəti, Sasani və Bizans imperiyalarına qarşı durmaları, XI əsrdə Türküstan, Xorasan və Azərbaycandan Oğuz və Türkmən elatlarının Anadoluya axınının başladığını qeyd edən Fəruq Sümər daha sonra yazır: "Ərəblərin həm Əməvilər, həm də Abbasilər dövründə dəfələrlə şəxsən xəlifələrin komandanlığı altında böyük ordularla gələrək, heç cür ala bilmədikləri Anadolu 1071-ci il Malazgirt müharibəsindən keçən 8-10 il ərzində başdanbaşa fəth edilmişdi (türklər tərəfindən - V.Ö.). Halbuki fəth vahid komanda altında və müntəzəm bir plan daxilində həyata keçirilməmişdi. Fəthin ardınca ölkənin hər tərəfi Oğuz elatları ilə doldu. Bunlar Türküstan və İranda yaşayan eldaşları tərəfindən daim bəslənir və yeni gələnlər hesabına sayları müntəzəm artırdı. Fəthdən sonra Anadolu ilə Türküstan arasında bir köç kanalı meydana gəlmişdi. XIII əsrin birinci yarısının ortalarına doğru Türküstan, Xorasan və Azərbaycandan Anadoluya bir-birinin ardınca qələbəlik - türkmən elatları gəlməyə başladı. Bunlar 1220-ci ildə başlayan monqol qasırğasından qaçırdılar. Beləliklə, Oğuzların böyük əksəriyyəti Anadoluda toplanmışdı. Osmanlı xanədanının mənsub olduğu oymağın da, rəvayət edildiyi kimi, monqolların önündən qaçıb Anadoluya gələn Türkmən elatları arasında olması, bizcə, ən qüvvətli ehtimaldır. Bu arada Sır-Dərya boyundakı şəhərlərdə və kəndlərdə yaşayan oturaq Oğuzların da monqol qılıncı altında can verməmək, onlara əsir düşməmək, monqol istilasının ardınca Türküstanda baş verən qorxunc aclıqdan ölməmək, nəhayət, eldaşlarının yaşadığı təhlükəsiz bir ölkə olması səbəbi ilə Anadoluya gəldikləri anlaşılır. Nəticədə, Anadolunun böyük bir qismi XI əsrdən başlayaraq XIV əsrə qədər davam edən böyük köçlər ilə hər baxımdan bir Oğuz (Türkmən) ölkəsi vəsfini aldı ki, XIV əsrdəki xarici müəlliflər də bunun fərqinə varmışdılar. Oğuzlar Anadoluya gələrkən, maddi və mənəvi mədəniyyətlərini də özlərilə gətirdilər. Məzarı Sır-Dərya sahilində olan Dədə Qorqudun mənəvi şəxsiyyəti də dastanlarla birlikdə Anadoluya gəldi. Oğuz türkcəsi, bir çoxlarının sandığı kimi, Anadolu və ya İstanbulda deyil, hələ buraya gəlməzdən əvvəl Türküstanda ikən bugünkü xüsusiyyətlərini daşıyır, orada da türk ləhcələrinin ən incəsi, ən zərifi şəklində təriflənirdi. Bu vəsilə ilə bir şeyi də qəti bir həqiqət olaraq deyim ki, Oğuzların Anadoluya gətirdikləri mədəniyyətləri, eyni zamanda, hər cür adət-ənənələri bütün xüsusiyyətləri ilə dövrümüzə qədər qüvvətlə davam edib qalmışdır. Müasir Anadolu türklərində əcdadları olan Oğuzların mədəniyyətləri, ruhi davranışları və antropoloji vəsfləri hakimdir. Bu gün istənilən adam Anadolunun türklər ilə məskunlaşmış hər bir zonasında Kaşqarinin Oğuzlara dair söylədiklərini bu zonadakı türklərin dil və davranışlarında, adət və ənənələrində açıqca müşahidə edə bilər. Hətta həmin adam Dədə Qorqud dastanlarından bəzilərinin Anadoluda hələ də yaşadığını görməklə heyrətlər içində qala bilər. Halbuki Türküstandakı türkmənlər bunları çoxdan unutmuşdular. Bu sözlərdən də göründüyü kimi, Oğuz türklərinin əsl və gerçək nümayəndələrini görmək üçün Türküstanı deyil, Anadolunu gəzib-dolaşmaq lazımdır".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## *Gur işıqlandırma süd vəzi xərçənginə səbəb olur*

ABŞ-ın Harvard Universiteti alimlərinin fikrincə, işıqlandırılması gur olan məhəllələrdə yaşayan qadınlarda süd vəzi xərçənginin yaranma ehtimalı daha çoxdur. AZƏRTAC “edition.cnn.com” saytına istinadla xəbər verir ki, tədqiqatçılar 110 minədək tibb bacısının evini öyrənərək 1989-2013-cü illər ərzində həmin şəxslərdə xərçəng xəstəliyinə rastgəlmə riskini araşdırıblar. Yaşayış ərazilərin işıqlandırılma dərəcəsini müəyyənləşdirmək üçün peyk fotoşəkillərindən istifadə edilib. Qadınların 3 min 500-dən çoxuna süd vəzi xərçəngi diaqnozu qoyulub. Alimlər bunun səbəbini xərçəng əleyhinə melatonin hormonunun kifayət qədər ifraz olunmaması ilə izah ediblər. Onlar hormonun qaranlıqda ifraz olunduğunu, ancaq normadan artıq işığa məruz qaldıqda orqanizmin “gecə psixologiyası”na keçə bilmədiyini bildiriblər.

## *Əl-ayaq-ağız xəstəliyi suçiçəyini xatırladan qabarcıqlarla müşayiət olunur*

Çox hallarda enterovirus ailəsindən Koksaki virusunun yol açdığı əl-ayaq-ağız xəstəliyi xüsusilə yay aylarında və payızda epidemiya halını alır. AZƏRTAC Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasına istinadən xəbər verir ki, bu xəstəliyə ən çox uşaqlarda təsadüf olunur. Hovuz mövsümünün başlaması və infeksiyalaşmış hovuz suyunun udulması ilə xəstələnmə riski artır. Xəstəliyə yuxarı tənəffüs yolları, tüpürcək, yaxın təmas və nəcis vasitəsilə yoluxmaq mümkündür. Xəstəliyin ilkin əlamətləri burun axıntısı, boğaz ağrısı, halsızlıq, başağrısı, yüksək temperatur, iştahasızlıq, qusma, ishal kimi hallardır. Bu əlamətlərə bir neçə gün ərzində ağız içində və ya ətrafında yaralar, əl və ayaqlarda qızarıqlıqlar və suçiçəyini xatırladan içi maye dolu qabarcıqlar, dizlərin arxasında, qalça, qasıq və genital bölgədə də görülə bilən qırmızı səpkilər əlavə olunur.

Bu halla üzləşdikdə xəstəlik müddətində bol maye qəbul edilməli, ağızdakı yaralar səbəbi ilə qidalanma çətinləşdiyi üçün yaraları göynətməyən qidalara üstünlük verilməli, ilk beş gün xəstəliyin yüksək yoluxuculuğa malik olduğu unudulmamalı, mümkün qədər hərarət düşürücülər, ağrı kəsicilər, yaraların sağalmasını sürətlənməsi üçün mazlar və losyonlardan istifadə edilməlidir. Onu da qeyd etmək lazımdır ki, bu virus infeksiyası olduğu üçün antibiotik istifadəsi mənasızdır. Xəstəlik 10 gün ərzində öz-özünə sağalır. Lakin ağırlaşmaların ola biləcəyi nəzərə alınmalıdır. Xüsusilə uşaqlar mütəmadi olaraq həkim nəzarətində olmalıdırlar.

## *Amerikada iflicin dərmanı hazırlanır*

İflic insanın normal hərəkətini və fəaliyyətini məhdudlaşdıran çox ciddi xəstəlikdir. Bu xəstəliyin müalicəsinə az diqqət yetirilmir. Məsələn, ABŞ alimləri bu yaxınlarda iflici müalicə edən dərman preparatı işləyib hazırlayıblar.

AZƏRTAC “vistanews” saytına istinadla xəbər verir ki, Harvard Tibb Məktəbinin mütəxəssisləri bu sahədə tədqiqat aparırlar. Onlar beyin ilə hərəkət sistemi arasında iflic nəticəsində pozulmuş əlaqəni bərpa edən molekulyar kokteyl işləyib hazırlayıblar.

Yeni preparat iki zülalın molekulları - insulinəbənzər böyümə faktoru 1(IGF1) və osteopontin (OPN), habelə 4-aminopiridin-3-metanol (4-AP-3) sintetik hormonu əsasında yaradılıb. İlk sınaqlar laboratoriya gəmiriciləri üzərində aparılıb. Bu preparatın siçanlara yeridilməsi onurğa beynində aksionların çoxalmasına kömək edib.

Tədqiqatçılar qeyd edirlər ki, baş beynin qabıqaltı nahiyəsində belə təsir müşahidə olunub. Sınaqların nəticələri əyani şəkildə nümayiş etdirib ki, yeni preparat heyvanların bərpası sürətini əhəmiyyətli dərəcədə artırır. Belə ki, iflic olmuş siçanlarda artıq üç aydan sonra reflektor hərəkətlər müşahidə olunmağa başlayıb və onlar bədənin iflic olmuş nahiyəsində pəncələrin hərəkətinə şüurlu nəzarət edə bilib. İndi alimlər bu sınaqları insanlar üzərində davam etdirmək istəyirlər.



## Rövnəq Abdullayev Beynəlxalq Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü seçilib



Avqustun 25-də Macarıstanın paytaxtı Budapeştdə Beynəlxalq Cüdo Federasiyasının konqresi keçirilib. AZƏRTAC xəbər verir ki, konqresdə dünya cüdo təşkilatına üzv olan bütün milli federasiyaların rəhbərləri, tanınmış idman xadimləri iştirak ediblər. Əvvəlcə Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer çıxış edərək son vaxtlar görülən işlərin, keçirilən mühüm tədbirlərin əhəmiyyətini xüsusi vurğulayıb. Sonra Beynəlxalq Cüdo Federasiyasının baş katibi Jan Roje qurumun son dörd illik fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış edib.

Marius Vizer prezident vəzifəsinə yeganə namizəd olduğundan səsvermə açıq qaydayda keçirilib. Səsvermə nəticəsində o, yekdilliklə növbəti dörd il müddətinə Beynəlxalq Cüdo Federasiyasının prezidenti seçilib. Daha sonra İcraiyyə Komitəsinin yeni tərkibini müəyyənləşdirmək üçün seçkilər keçirilib. Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev Beynəlxalq Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü seçilib.



## “Atletiko: “Yenidən Bakıya gedəcəyimiz üçün şadıq”

Futbol üzrə UEFA Çempionlar Liqasında “Qarabağ”la eyni qrupda yer alan Madrid “Atletiko”su Ağdam təmsilçisini təbrik edib. SİA-nın məlumatına görə, ispanlar “Twitter” səhifəsində ilk dəfə ÇL-in qrup mərhələsinə yüksələn “Qarabağ”a təbrik mesajı göndəriblər: “İlk dəfə Çempionlar Liqasının qrup mərhələsində iştirak edəcəyiniz üçün sizi təbrik edirik. Biz yenidən Azərbaycanın paytaxtı Bakıya gedəcəyimiz üçün şadıq”. Bir neçə il əvvəl “Bakı” klubu ilə əməkdaşlıq etmiş “Atletiko” 2013-cü ildə paytaxtımızda olub. Qeyd edək ki, “Qarabağ” ÇL-də “Atletiko”, “Çelsi” və “Roma” ilə eyni qrupda mübarizə aparacaq.

## Ronaldo Avropanın ən yaxşı futbolçusu seçildi!



Avropanın ən yaxşı futbolçusunun adı açıqlanıb. Apasport.az saytının məlumatına görə, Çempionlar Liqasının püşkatma mərasiminin keçirildiyi Monakoda həm də ötən mövsümün ən yaxşı oyunçusu müəyyənləşib. Madrid “Real”ının hücumçusu Kriştianu Ronaldo keçən il olduğu kimi, yenə bütün rəqiblərini qabaqlayıb. O, “Barselona”nın futbolçusu Lionel Messi və “Yuventus”un kapitanı Canluici Buffonla mübarizədə üstün olaraq, Avropada 2016/17 mövsümünün ən yaxşı futbolçusu seçilib. Qeyd edək ki, 32 yaşlı superulduz karyerasında 3-cü dəfə bu mükafatı qazanıb.

## “Qarabağ” Çempionlar Liqasındakı ev oyunlarını Respublika stadionunda keçirəcək

Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsində Ağdamın “Qarabağ” komandasının ev və səfər oyunlarını keçirəcəyi stadionlar müəyyənləşib. UEFA-nın rəsmi saytında yer alan məlumata görə,”C” qrupunda çıxış edəcək Azərbaycan klubu rəqiblərini Tofiq Bəhramov adına Respublika stadionunda qəbul edəcək.

Ağdam komandası sentyabrın 27-də İtaliyanın “Roma”, oktyabrın 18-də İspaniyanın “Atletiko Madrid” və noyabrın 22-də İngiltərənin “Çelsi” klubları ilə ev oyunlarını Tofiq Bəhramov adına Respublika stadionunda keçirəcək. “Qarabağ” oktyabrın 31-də “Atletiko Madrid”in yeni arenası olan 68 min nəfərlik “Vanda Metropolitano” stadionunda meydana çıxacaq. “Qarabağ” sentyabrın 12-də İngiltərənin paytaxtı Londondakı 42 mindən çox azarkeş tutumlu “Stemford Bric” stadionunda “Çelsi” komandası ilə üz-üzə gələcək. Ağdam təmsilçisi dekabrın 5-də sonuncu oyunda İtaliyanın paytaxtındakı 72 minlik “Olimpiko” stadionunda “Roma”nın qonağı olacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**